# GƏRGİNLİYƏ SON QOYAN GÖRÜŞ

Əliyev-Putin görüşü Rusiya-Azərbaycan münasibətlərindəki gərginlik fonunda müsbətə doğru yeni başlanğıc kimi dəyərləndirilir.

Düşənbədə keçirilən görüşdə demək olar bütün suallara aydınlıq gətirildi. Rusiya Prezidenti səmimi şəkildə, mətbuatın iştirakı ilə hadisənin təfərrüatları barədə fikirlərini söylədi. Qəzanın səbəbləri ilə bağlı danışarkən Rusiyanın hava müdafiə sistemində texniki nasazlığın olması, bu sistemlərdən buraxılan iki raketin qalıqlarının təyyarəyə ciddi zərər verməsi açıq şəkildə ifadə edildi.

SƏHİFƏ 4-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

11 OKTYABR ŞƏNBƏ 2025 № 39 (4240) Qiyməti - 60 qəpik www.kaspi.az

## MDB ZİRVƏSİNDƏ LAÇIN VURĞUSU

Prezident İlham Əliyev: "Bu ilin iyununda Laçında "MDB-nin mədəniyyət paytaxtı İli"nin açılış mərasimi keçirildi, Azərbaycanın bu qədim torpağının tarixi, mədəni irsi haqqında məlumat verildi".

SƏHİFƏ 2-də



## DÖVLƏT VƏ ÖZƏL SEKTORDA MAAŞ YARIŞI

Orta aylıq əməkhaqqı artmaqda davam edir. Mütəxəssislər bu artımı həm də ilin əvvəlində baş verən əməkhaqqı artımları ilə əlaqələndirirlər. Həmişə olduğu kimi, bu dəfə də artımda əsas pay özəl sektorundur.

SƏHİFƏ 6-da

SÜLH VƏ TƏHLÜKƏSİZLİK, İQTİSADİ İNTEQRASİYA, TRANZİT İMKANLARI

# TDT VAHİD GÜC MƏRKƏZİ KİMİ



Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşü türk dövlətlərinin birliyinin sarsılmaz olduğunu bir daha dünyaya nümayiş etdirdi. Artıq qarşıya qoyulan hədəflərin miqyası da böyüyür.

**MÜHÜM SİYASİ QƏRARLARIN VAXTI ÇATIB**

Rəsmi Bakı TDT-nin vahid güc mərkəzi kimi çıxış etməsini prioritet sayır. Bu istiqamətdə həm ikitərəfli, həm də təşkilat çərçivəsində mühüm diplomatik-siyasi qərarların qəbul edilməsi üçün səy göstərir. Azərbaycanın məlum istəyi səbəbsiz də deyil.

**TDT MƏKANININ ƏN MÜHÜM KİLİD ÖLKƏSİ**

Güclü beynəlxalq mövqelərə malik olmaq üçün tək siyasi birlik yox, həm də sıx iqtisadi əməkdaşlıq və beynəlxalq səviyyəli birgə layihələrin reallaşdırılması vacibdir. Bu məsələdə rəsmi Bakının yanaşması əslində TDT üzvləri üçün yol xəritəsi də sayıla bilər.

SƏHİFƏ 3-də



## ELEKTRON İMTAHANA KEÇİD BİZƏ NƏ VERƏCƏK?

Qəbul imtahanlarının tamamilə elektronlaşdırılması nəzərdə tutulur. İmtahan nəticələrinin yoxlanılmasında süni intellektdən istifadə də planlaşdırılır. Amma bunun üçün hüquqi tənzimləmə vacibdir.

SƏHİFƏ 11-də



## HASİLAT ARTIR, BƏS QİYMƏT?

OPEC+ hasilatı artırmaq qərarı verib. Ekspertlərin fikrincə, bu qərar gözlənilən idi. Çünki dünyada neftə tələbat artır. Lakin hasilatın artırılmasının Azərbaycan üçün ciddi risk daşımadığı qənaəti mövcuddur.

SƏHİFƏ 7-də

Xərçəngi qidalandıran amillər hansılardır?

## YAŞ ARTDIQCA XƏRÇƏNG RİSKİ HƏNDƏSİ SİLSİLƏ İLƏ YÜKSƏLİR



Altay Əliyev: "Xərçəngin qarşısını almaq və erkən diaqnoz vasitəsilə xəstəliyin riskini azaltmaq mümkündür. Sadaladığımız önlənə bilən risk faktorlarından uzaq durmaq və sağlam həyat tərzini qorumaqla, statistik olaraq yeni xəstələrin təxminən üçdə birinin qarşısını almaq olar".

SƏHİFƏ 8-9-da



## ROMANIN ƏN GİZLİ VƏ UNİKAL GUŞƏSİ

Qarbatellada yerli romalılar yaşayırlar. Onun memarlığı və sakinləri 20-ci əsrin əvvəllərindəki Roma həyatının canlı ensiklopediyası hesab edilir. Burada gözəl italyan xiyabanlarını, orijinal qraffitiləri müşahidə etmək olur.

SƏHİFƏ 15-də



## PALMA YAĞINA TƏLƏBAT NİYƏ YÜKSƏKDİR?

Kərə yağı kimi istifadə etdiyimiz məhsulların tərkibində də palma yağına rast gəlinir. Palma yağı marqarin və digər bitki yağları ilə birlikdə kərə yağına qarışdırıla bilər. Bu, məhsulun maya dəyərini azaltmaq məqsədi ilə edilir.

SƏHİFƏ 13-də



Ballıca və Təzəbinəyə növbəti köç

SƏHİFƏ 2-də



14 ildən sonra keçirilən ilk seçki

SƏHİFƏ 5-də



Qanunsuz əyləncənin qurbanları

SƏHİFƏ 12-də



Bakıya gətirilən ətlər təhlükəlidir?

SƏHİFƏ 14-də



Möhtəşəm təşkilatçılıq, uğurlu nəticə

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# Ballıca və Təzəbinəyə növbəti köç

Xocalı rayonuna yola salınan növbəti köç karvanı Ballıca kəndinə çatıb, açarlar təqdim olunub. Açarların təqdim olunması mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri iştirak ediblər. Qeyd edək ki, bununla Ballıca kəndinə köçürülən ailələrin sayı 215-ə (965 nəfər) çatıb. Növbəti köç karvanı Təzəbinə kəndinə də çatıb, açarlar təqdim olunub. Qeyd edək ki, Təzəbinə kəndinə köçürülən ailələrin sayı 56-ya (251 nəfər) çatıb.



# "3+3" görüşü Bakıda keçirilə bilər

Rusiya "3+3" regional məşvərət platformasının dördüncü nazirlər görüşünün 2025-ci ilin sonuna qədər keçirilməsini dəstəkləyir. "Report" Ermənistan mediasına istinadən xəbər verir ki, bu barədə Rusiyanın Ermənistanda səfiri Sergey Kopırkin Rusiya-Ermənistan Universitetinin tələbələri ilə görüşdə bəyan edib. "Hazırda biz Ermənistan və Azərbaycanla da əlaqə saxlayırıq, çünki orada növbəlilik məsələsi var. Yəni həm Ermənistan, həm də Azərbaycan tərəfi belə bir iclasa ev sahibliyi etməyə hazırdır, onlar növbəlilik qaydasını razılaşdırmalıdır, biz də bu istiqamətdə hər cür köməklik edirik", - o bildirib.

Səfirin sözlərinə görə, platformanın Türkiyə və İran tərəfi ilə əlaqə saxlayan bütün iştirakçıları hesab edirlər ki, bu, faydalı formatdır və regional problemlərin həllində region dövlətlərinin özləri mühüm rol oynamalıdır.

# MDB ZİRVƏSİNDƏ LAÇIN VURĞUSU




Prezident İlham Əliyev: "Bu ilin iyununda Laçında "MDB-nin mədəniyyət paytaxtı İli"nin açılış mərasimi keçirildi, Azərbaycanın bu qədim torpağının tarixi, mədəni irsi haqqında məlumat verildi. Tədbirin qonaqları Laçının Ermənistanın 30 illik işğalından azad ediləndən sonra sürətli dirçəlişinin əyani şəkildə şahidi oldular".

F.ABBASOĞLU

Oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilib. Prezident İlham Əliyev iclasda çıxış edib. Dövlət başçısı qonaqpərvərliyə, tədbirin yüksək səviyyədə təşkilinə görə Tacikistan Prezidenti Emoməli Rəhmona təşəkkür edib.

### İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİN ARDICIL İNKİŞAFI

Prezident çıxışında qardaş Tacikistan xalqını əldə olunmuş uğurlar və nailiyyətlər münasibətilə təbrik edib: "Düşənbədə dəfələrlə olarkən ölkənin paytaxtının necə sürətlə inkişaf etdiyini, yeni binaların tikildiyini görürəm. Bütün bunlar bizi dost kimi çox sevindirir. Şəhərsalma sahəsində uğurlar münasibətilə təbrik edirəm və Düşənbənin ildən-ilə gözəlləşdiyinə şadam.

Bu gün, həmçinin Tacikistan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin ardıcıl inkişafını qeyd etmək istərdim. Onlar qardaşlıq, dostluq, qarşılıqlı dəstəyə əsaslanır və böyük inkişaf potensialına malikdir".

### LAÇIN ƏN GÖZƏL ŞƏHƏRLƏRDƏN BİRİNƏ ÇEVRİLİB

Dövlət başçısı humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə də toxunub. Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhərinin bu il MDB-nin mədəniyyət paytaxtı kimi namizədliyini dəstəklədiklərinə görə MDB dövlət başçılarına təşəkkürünü bildirib: "Bu ilin iyununda Laçında "MDB-nin mədəniyyət paytaxtı İli"nin açılış mərasimi keçirildi, Azərbaycanın bu qədim torpağının tarixi, mədəni irsi haqqında məlumat verildi. Tədbirin qonaqları Laçının Ermənistanın 30 illik işğalından azad ediləndən sonra sürətli dirçəlişinin əyani şəkildə şahidi oldular. Tamamilə dağıdılmış şəhər bir neçə il ərzində ən gözəl və yaşayış üçün rahat şəhərlərdən birinə çevrilib".

## Birliyin həyatında daha bir mühüm hadisə



Prezident İlham Əliyev bildirib ki, Birliyin həyatında daha bir mühüm hadisə sentyabrın 28-dən oktyabrın 8-dək qədim Gəncə şəhərində - XII əsrin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin vətənində keçirilən III MDB Oyunları oldu: "Gəncə ilə yanaşı, Azərbaycanın daha altı şəhərində - Qəbələ, Göygöl, Yevlax, Mingəçevir, Xankəndi, Şəkidə 13 ölkədən – həm MDB üzvləri olan, həmdə qonaq ölkələrdən 1600-dən çox idmançı qəbul edildi. Bu qəbildən tədbirlər MDB məkanında və onun hüdudlarından kənarda dostluğu, əməkdaşlığı möhkəmləndirir, bərabərhüquqlu, qarşılıqlı maraqlara və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə kömək edir".

Oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib. Prezident İlham Əliyev iclasda iştirak edib.

"Müstəqil Dövlətlər Birliyinə (MDB) sədrlik 2026-cı ilin yanvar ayından Türkmənistana keçəcək". Bunu Tacikistan Prezidenti Emoməli Rəhmon Düşənbədə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclasında bəyan edib. O bildirib ki, MDB-nin növbəti sammiti 2026-cı il oktyabrın 9-da Türkmənistanda keçiriləcək.

## Emoməli Rəhmon ilə ikitərəfli görüş



Qeyd edək ki, Düşənbə səfəri çərçivəsində Prezident İlham Əliyevin tacikistanlı həmkarı Emoməli Rəhmon ilə də təkbətək görüşü olub.

Söhbət zamanı iki ölkənin dövlət başçılarının Azərbaycanda və Tacikistanda, həmçinin beynəlxalq tədbirlər çərçivəsində görüşləri məmnunluqla xatırlanıb, yüksəksəviyyəli qarşılıqlı səfərlərin müxtəlif sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi işinə verdiyi töhfəyə toxunulub.

MDB Dövlət Başçıları Şurasının Düşənbədə keçirilən iclasının aktual məsələlərin müzakirəsinə yaxşı imkan yaratdığı qeyd edilib.

Görüşdə Azərbaycan və Tacikistan prezidentləri əlaqələrimizin uğurla inkişaf etdiyini vurğulayıblar və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

# TDT VAHİD GÜC MƏRKƏZİ KİMİ

Qəbələ görüşü türk dövlətlərinin birliyinin sarsılmaz olduğunu bir daha dünyaya nümayiş etdirdi. Artıq qarşıya qoyulan hədəflərin miqyası da böyüyür.





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Türk dünyasının liderləri növbəti dəfə bir araya gəldilər. Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün budəfəki ünvanı qədim türk yurdu olan Qəbələ oldu. Zirvə görüşündə Prezident İlham Əliyev ilə yanaşı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev iştirak etdilər.

### "REGİONAL SÜLH VƏ TƏHLÜKƏSİZLİK"

"Regional sülh və təhlükəsizlik" adı altında təşkil edilən Zirvənin əhəmiyyəti, qəbul edilən qərarlar türk dünyasının beynəlxalq aktor olaraq gücləndirilməsi zərurətini bir daha ortaya qoydu. Prezident İlham Əliyevin çıxışı zamanı xüsusilə sülh və təhlükəsizlik, iqtisadi inteqrasiya, tranzit imkanlarının genişləndirilməsi istiqamətində təklifləri türk dövlətləri coğrafiyasının sabitlik və rifah məkanına çevrilməsini şərtləndirən başlıca amillər hesab edilir.

Dövlət başçısının da vurğuladığı kimi, bu gün TDT, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Dünyada baş verən gərginliklər fonunda TDT üzvlərini bir ailə kimi birləşdirən ortaq tarix və etnik köklər, müştərək milli-mənəvi dəyərlər diqqət çəkir. "Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir", - Azərbaycan Prezidenti bildirib.

## Birgə hərbi təlimlərin keçirilməsi təklifi

Rəsmi Bakı TDT-nin vahid güc mərkəzi kimi çıxış etməsini prioritet sayır. Bu istiqamətdə həm ikitərəfli, həm də təşkilat çərçivəsində mühüm diplomatik-siyasi qərarların qəbul edilməsi üçün səy göstərir. Azərbaycanın məlum istəyi səbəbsiz də deyil. Prezident İlham Əliyevin Zirvə görüşündəki çıxışında bu vurğu və sadalanan səbəblər xüsusilə diqqət çəkir. Onun sözlərinə görə, dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə Görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və Qəbələ Zirvə Görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir: "Məlumdur ki, təhlükəsizlik təmin edilmədən inkişaf mümkün deyil. Beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğu dövrdə ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq çox önəmli amillərdən biridir. Bu çərçivədə müttəfiqimiz olan Türkiyə ilə dərin əməkdaşlıq mövcuddur. Yalnız son bir ildə Türkiyə ilə birgə 25-dən artıq ikitərəfli və çoxmillətli hərbi təlimlər keçirilmişdir. Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edirəm. Bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir".

### TDT MƏKANININ ƏN MÜHÜM KİLİD ÖLKƏSİ

Təbii ki, güclü beynəlxalq mövqelərə malik olmaq üçün tək siyasi birlik yox, həm də sıx iqtisadi əməkdaşlıq və beynəlxalq səviyyəli birgə layihələrin reallaşdırılması vacibdir. Bu məsələdə rəsmi Bakının yanaşması əslində TDT üzvləri üçün yol xəritəsi də sayıla bilər. Çünki Azərbaycan bu günə qədər reallaşdırdığı layihələr və yerləşdiyi geosiyasi və coğrafi mövqeyinə görə TDT məkanının ən mühüm kilid ölkəsi sayılır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, nəqliyyat və kommunikasiya əlaqələri TDT çərçivəsində strateji əhəmiyyətə malikdir: "Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır. Ölkəmiz Türkiyə ilə Mərkəzi Asiya arasında coğrafi, iqtisadi, nəqliyyat və digər sahələrdə körpü rolunu oynayır. 2022-ci ildən bəri Orta Dəhlizlə yükdaşımalar təqribən 90 faiz artıb. Dəhliz boyu tranzit müddətləri əhəmiyyətli dərəcədə azalıb. Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirib. Bu çərçivədə Vaşinqton Zirvəsinin digər mühüm nəticələrindən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Zəngəzur dəhlizi həm Orta Dəhliz, həm də Şimal-Cənub Dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb edir".



## Türk dövlətlərinin sarsılmaz birliyi

Qəbələ Zirvəsi tək təhlükəsizlik, iqtisadi əməkdaşlıq və tranzit dəhlizlərin genişləndirilməsinə dair əməkdaşlığı dərinləşdirmək çağırışları ilə yadda qalmadı. TDT çərçivəsində enerji, mədəniyyət, ortaq əlifba, digər mədəni və sosial tədbirlərin təşkilinə də xüsusi diqqət yetirildi ki, bu da üzv ölkələr arasında bağları daha da gücləndirən amillərdən hesab olunur. Türk dövlətlərinin həmrəyliyi, birliyi özünü Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasına dəstəkdə də açıq şəkildə göstərdi. Prezident İlham Əliyev üzv ölkələrin birbaşa dəstəyi ilə reallaşan layihələri sadalayaraq onlara öz təşəkkürünü bildirdi. Azərbaycan xalqının bu dəstəyi heç bir zaman unutmayacağını xüsusi olaraq vurğuladı.

Beləliklə, Qəbələ görüşü türk dövlətlərinin birliyinin sarsılmaz olduğunu bir daha dünyaya nümayiş etdirdi. Artıq qarşıya qoyulan hədəflərin miqyası da böyüyür. TDT mövcud kataklizmlər fonunda sülh və sabitliyin, inkişafın və ortaq dəyərlərin, birgə mövqenin sərgiləndiyi platforma kimi meydana çıxır.

# GƏRGİNLİYƏ SON QOYAN GÖRÜŞ



İlham Əliyev-Vladimir Putin görüşü on bir aydan çox davam edən Rusiya-Azərbaycan münasibətlərindəki gərginlik fonunda müsbətə doğru yeni başlanğıc kimi dəyərləndirilir. Milli maraqların bərabər səviyyədə nəzərə alınması, qarşılıqlı hörmət prinsipləri bundan sonrakı Rusiya-Azərbaycan münasibətlərinin əsasını təşkil edəcək.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Düşənbədə reallaşan İlham Əliyev-Vladimir Putin görüşü on bir aydan çox davam edən Rusiya-Azərbaycan münasibətlərindəki gərginlik fonunda müsbətə doğru yeni başlanğıc kimi dəyərləndirilir. Təbii ki, bu başlanğıcı şərtləndirən amil gərginliyin əsas səbəbi sayılan AZAL-a məxsus təyyarənin qəzası ilə bağlı Rusiya Prezidentinin media qarşısında Azərbaycanın haqlı tələblərini özündə əks etdirən çıxışı idi.

### SUALLARA AYDINLIQ GƏTİRƏN AÇIQLAMALAR

Bir daha qeyd edək ki, qəzanın səbəbləri və mövcud reallıq fonunda Azərbaycanın tələbləri var idi. Uzun müddət idi bu kontekstdə müzakirələr gedirdi. Düşənbədə keçirilən görüşdə demək olar bütün suallara aydınlıq gətirildi. Rusiya Prezidenti səmimi şəkildə, mətbuatın iştirakı ilə hadisənin təfərrüatları barədə fikirlərini söylədi. Qəzanın səbəbləri ilə bağlı danışarkən Rusiyanın hava müdafiə sistemində texniki nasazlığın olması, bu sistemlərdən buraxılan iki raketin qalıqlarının təyyarəyə ciddi zərər verməsi açıq şəkildə ifadə edildi. Digər mühüm bir məqam isə hadisəyə obyektiv hüquqi qiymətin verilməsi ilə bağlı Rusiya liderinin açıqlamasıdır ki, Vladimir Putin tərəfindən kompensasiya üzrə hər şeyin ediləcəyi və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcəyi bəyan olunub.

## Güclü siyasi iradə, diplomatik peşəkarlıq

Proseslərin mövcud məntiqi sonluğunu şərtləndirən başlıca amil isə Prezident İlham Əliyevin sözügedən proseslə bağlı ortaya qoyduğu güclü siyasi iradə və rəsmi Bakının çevik diplomatik gedişləri oldu. Siyasi münasibətlərdə müşahidə olunan gərginliyin digər sahələrdə, xüsusilə iqtisadi sektorda əməkdaşlıq imkanlarına kölgə salınmasına imkan verilmədi. Azərbaycanın ali rəhbərliyinin sərgilədiyi mövqe qarşılıqlı maraqların nəzərə alınması, münasibətlərdə bərabərhüquqlu tərəfdaşlıq mexanizminin tətbiqini artıq reallığa çevirib.

### ÜST-ÜSTƏ DÜŞƏN QARŞILIQLI MARAQLAR

Azərbaycan-Rusiya münasibətlərindəki gərginliyin qarşılıqlı maraqlara zərər verdiyini Vladimir Putinin Düşənbə görüşündəki çıxışında da müşahidə etdik. “Bizim maraqlarımız, qarşılıqlı maraqlarımız bir çox sahələrdə üst-üstə düşür və çox yaxındır. Əlbəttə, hər şeydən əvvəl bu, iqtisadi-ticari əlaqələrə aiddir. Bu faciə ilə əlaqədar indi danışdığım bütün nüanslara, onunla əlaqədar hansısa məsələlərə baxmayaraq, iqtisadi-ticari əlaqələr inkişaf edib və uğurla inkişaf edir. Keçən il ticarət dövriyyəsində təqribən 6 faiz, bu il isə 16 faizdən çox artım olub. Bu, çox yaxşı göstəricidir”, - Putin deyib. Beləliklə, Kreml rəhbərinin məlum çıxışı Rusiyanın Azərbaycanla münasibətlərin əvvəlki səviyyəyə qayıtmasına xüsusi önəm verdiyi təəssüratını yaradır. Bunun nə dərəcədə reallığa çevriləcəyini isə zaman göstərəcək.

### ANTİ-AZƏRBAYCAN QÜVVƏLƏRİN SUYA DÜŞƏN PLANLARI

Əliyev-Putin görüşünü əhəmiyyətli edən digər vacib məqam isə odur ki, münasibətlərin normallaşması Rusiya ərazisində daim anti-Azərbaycan mövqeyi ilə seçilən dairələrin fəaliyyət imkanları xeyli məhdudlaşır. Xüsusilə Simonyan, Solovyov, Zatulin və digər bu kimi ermənipərəstlər öz məqsədlərinə nail ola bilmədilər. Putinin Azərbaycanla münasibətlər haqqında Kremlin rəsmi mövqeyini açıq şəkildə bəyan etməsi bu qüvvələr üçün də bir siqnal sayılır. Digər tərəfdən, iki ölkə arasındakı gərginlikdən istifadə etmək istəyənlərin arzuları ürəklərində qalmış olur.



## CƏNUBİ QAFQAZDA SÖZ SAHİBİ OLMAĞIMIZ TƏSDİQLƏNİR

Görüş çərçivəsində Prezident İlham Əliyevin çıxışı isə özünün konkretliyi və hədəfliliyi ilə seçildi. Dövlət başçısı Vladimir Putinin açıqlamalarından məmnun qaldığını bəyan edərək qəza ilə bağlı araşdırmaların bir daha obyektiv sonluqla yekunlaşacağına inandığını bildirdi. Həmçinin iki ölkə arasında iqtisadi-ticari sahədə müşahidə olunan dinamikanı, əvvəlcədən razılaşdırılmış layihələrin uğurla davam etdiyini bildirdi.

Beləliklə, Düşənbədə reallaşan Əliyev-Putin görüşünün Rusiya-Azərbaycan münasibətlərindəki gərginliyə son qoyduğunu söyləmək olar. Tərəflər aralarındakı problemləri dialoq yolu ilə aradan qaldırmaqda maraqlı olduqlarını açıq şəkildə nümayiş etdirmiş oldular. İki qonşu dövlət bütün sahələrdə əməkdaşlığın inkişafında maraqlı olduğunu açıq şəkildə ifadə etdi.

Bu proses həm də Azərbaycanın Cənubi Qafqazda söz sahibi olduğunu, güclü dövlətlərin liderlərinin rəsmi Bakının, xüsusilə də Prezident İlham Əliyevin iradəsi ilə ciddi şəkildə hesablaşdığını bütün dünyaya nümayiş etdirdi. Ən əsası isə, tarixi qələbəmizdən sonra mövcud reallıqlara uyğun şəkildə ikitərəfli münasibətlərdə tələb etdiyimiz milli maraqların qarşılıqlı olaraq bərabər səviyyədə nəzərə alınması, qarşılıqlı hörmət prinsipləri bundan sonrakı Rusiya-Azərbaycan münasibətlərinin əsasını təşkil edəcək.

# 14 İLLİK FASİLƏDƏN SONRA KEÇİRİLƏN İLK SEÇKİ



Suriyada 14 illik vətəndaş müharibəsindən sonra keçirilən seçkilərə münasibət fərqlidir. Təhlükəsizlik səbəbləri ilə Raqqa, Həsəkə və Süveyda əyalətlərində səsvermə məntəqələri qurulmayıb. Türkiyə nəticələrdən məmnun, İran narazıdır.



AZƏR NURİYEV

Suriyada ötən bazar günü Bəşər Əsəd rejiminin istefasından sonra ilk dəfə qeyri-adi, maraqlı parlament seçkilərinin nəticələri elan olunub. Seçkilərdə təxminən 6000 regional seçki kollegiyası üzvləri yeni parlamentin (Xalq Məclisi) 210 deputatdan ibarət təxminən 2/3 hissəsinin formalaşdırılması prosesinin bir hissəsi olaraq əvvəlcədən təsdiqlənmiş siyahılardan namizədləri seçiblər. Suriya Prezidenti Əhməd Əl Şaraa sonradan qalan üçdə bir hissəni təsdiq edəcək. İlkin nəticələrə görə, 119 deputat seçilib, lakin onların aldığı səslərin sayı hələ göstərilmir. Hələbdən 30, Dəməşqdən 10, Dəməşq ətrafı rayonlardan 12, Homsdan 12, Hamadan 12, Latakiyadan 10, Tartusdan 2, Deyr-əz-Zordan 10, İdlibdən 12, Deradan altı və Kuneytrdən üç deputat seçilib. "Reuters"in seçki müşahidəçilərinin məlumatlarına əsaslanan hesablamalarına görə, yeni deputatlardan altısı qadındır. Onlar qeyd edirlər ki, ümumilikdə 10 yer dini və etnik azlıqlara məxsusdur. Qeyd edək ki, bu, Suriyada keçmiş dövlət başçısı Bəşər Əsədin devrilməsindən və Əhməd Əl Şaraanın hakimiyyətə gəlişindən sonra keçirilən ilk parlament seçkiləridir.



Əhməd Əl Şaraa

### SURİYALILAR ÜÇÜN TARİXİ AN

Suriyada 14 illik vətəndaş müharibəsindən sonra keçirilən seçkilərə münasibət fərqlidir. Tənqidçilər bildirirlər ki, təhlükəsizlik səbəbləri ilə Raqqa, Həsəkə və Süveyda əyalətlərində səsvermə məntəqələri qurulmayıb. Hakimiyyət mövcud proseduru seçməsini ölkədəki çoxillik vətəndaş müharibəsi səbəbindən etibarlı demoqrafik məlumatların olmaması ilə izah edib. Səsvermə zamanı Şaraa Dəməşqdəki Milli Kitabxananın seçki mərkəzində çıxış edərək, bu seçkiləri "suriyalılar üçün tarixi an" adlandırıb və hakimiyyətin cəmi bir neçə ay ərzində "hazırkı şəraitə uyğun" seçki prosesini təşkil etməyi bacardığını vurğulayıb. "Syria Direct" portalının yazdığına görə, seçki kampaniyası zamanı namizədlərin heç biri açıq təbliğat aparmayıb, böyük şəhərlərdə seçkiqabağı plakatlar, reklam lövhələri olmayıb. Səsvermə prosesinə Şaraa tərəfindən təyin edilən 11 üzvdən ibarət Ali Komitə nəzarət edib. Bu qurum öz növbəsində yerli hakimiyyətlə məsləhətləşmədən sonra regional seçici nümayəndələrini seçib. "Reuters"in məlumatına görə, namizədlər siyahısında 1578 nəfər olub, onlardan 14% qadınlar idi. Suriyanın ali seçki komissiyasının üzvü Həsən əd-Daqim "RİA Novosti"yə bildirib ki, devrilmiş rejimin tərəfdarlarına səs vermək və ya namizədliklərini irəli sürmək imkanı verilməyib.

Yeni parlamentin deputatlarının səlahiyyət müddəti cəmi 30 ay təşkil edir. Bu müddət ərzində onlar yeni seçki qanunu qəbul etməli və yenilənmiş konstitusiya hazırlamalıdırlar.

### ƏHMƏD ƏL ŞARAA TƏLƏSİR

Seçki günü Milli Kitabxanada rəsmilərlə bir araya gələn keçid administrasiyasının prezidenti, Təhrir əş-Şam (HTŞ) lideri Əhməd Əl Şaraa verdiyi açıqlamada Suriyanın içində olduğu həssas prosesə diqqət çəkərək bunları qeyd edib: "Müharibə və xaos şəraitindən qısa zamanda Suriya seçkiləri prosesinə keçid xalqımızın iradəsinin və dövlət qabiliyyətinin göstəricisidir. Bu, fərdi deyil, kollektiv səylərin uğurudur".

Şaraa, həmçinin Məclisin qanunvericilik vəzifələrinə yenidən başlaya bilməsi üçün millət vəkillərinin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb: "Gözləməkdə olan qanunların və büdcə layihələrinin həyata keçirilməsi üçün Məclisi fəaliyyətə qaytarmalıyıq. Qanunların işləkliyini təmin etmək, hökumətə nəzarət etmək millət vəkillərimizin borcudur".



Hakan Fidan

## TÜRKİYƏ MƏMNUNDUR

Ölkənin qanunverici orqanında yer əldə edənlər arasında Suriya Türkmənləri Assosiasiyaları Federasiyasının sədri Tarık Sulo Cevizci də olacaq. 8 dekabr çevrilişindən sonra Suriyanın siyasi, iqtisadi və təhlükəsizliyinin yenidən qurulmasında mühüm rol oynamış lider ölkə olan Türkiyə də seçkilərin keçirilməsindən məmnundur. Xarici işlər naziri Hakan Fidan seçkilərin əhəmiyyətini vurğulayaraq, "bu, hökumətin Suriyada yeni bir həyat və sistemin qurulmasını elan etməsindən sonra, mahiyyət etibarı ilə institutsionallaşma kimi ikinci mühüm addımdır" deyib. Onun sözlərinə görə, hazırda Suriyanın fiziki bütövlüyünə təhlükə yaradan ünsürlər aradan qaldırılmalıdır. YPG indi niyyətlərini açıq şəkildə ifadə etməli və Dəməşqlə razılığa gəlməlidir. Bundan başqa, cənubdakı druz problemi ölkənin bütövlüyünü təhlükə altına atmadan, hər iki tərəfin məqbul perspektivi ilə müsbət şəkildə həll edilməlidir.

### BEYNƏLXALQ MEDİA NƏ YAZIR?

Seçkilərə beynəlxalq reaksiyalar birmənalı deyil. Məsələn, CNN "narahatdır" ki, kürd və druz bölgələri bu prosesdən kənarda qalıb, dini və etnik azlıqlar üçün kvota olmayıb. Bu da yeni parlamentdə Suriya əhalisinin maraqlarının nə dərəcədə təmsil olunacağı suallarını yaradır. "Əl-Cəzirə" isə yazır ki, çatışmazlıqlara baxmayaraq, bu seçkilər suriyalılar üçün ölkənin çoxsaylı və əhəmiyyətli problemlərini həll etməyə başlaya biləcək bir qurumda təmsil olunmaq yolunda mühüm addımdır. "Jerusalem Post" isə yazır ki, bu seçki Dəməşq üçün mühüm addımdır: "Ancaq fəsadlar da var. Yeni keçid hökuməti bütün Suriyaya nəzarət etmir, yəni ayrı-ayrı bölgələrdə seçkilərin keçirilməsi çox çətindir". İranın "Bornna News" nəşri isə yazır ki, "yeni rejimin hakimiyyətə gəlişindən sonra keçirilən seçkilər bəzi ərəb dövlətlərinin sistemlərinin təkrarıdır: "Onlar demokratiya bayrağı altında saxlanılır, lakin Suriya xalqının parlamentdə heç bir real təmsilçiliyi yoxdur".

Nəticə etibarilə, bu seçkilər Suriyada yeni dövlətin inşası istiqamətində növbəti addımdır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# DÖVLƏT VƏ ÖZƏL sektorda maaş yarışı



Orta aylıq əməkhaqqı artmaqda davam edir. Mütəxəssislər bu artımı həm də ilin əvvəlində baş verən əməkhaqqı artımları ilə əlaqələndirirlər. Həmişə olduğu kimi, bu dəfə də artımda əsas pay özəl sektorundur.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Ölkədə orta aylıq əməkhaqqı 1100 manata çatır. 2025-ci il avqustun 1-nə olan vəziyyətə əsasən, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1768,4 min nəfər olub, onlardan 858,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 910,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Məlumata görə, muzdla işləyənlərin 18,9 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 18,1 faizi təhsil, 13,8 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,8 faizi tikinti, 6,3 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi maliyyə və sığorta fəaliyyəti, 14,8 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.

2025-ci ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,5 faiz artaraq 1098,1 manat təşkil edib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub. Rəqəmlərdən göründüyü kimi orta aylıq əməkhaqqı 1100 manata yaxınlaşır. Yanvar-fevral aylarında bu göstərici 1043,6 manat təşkil edib. Bəs bu artımların səbəbi nədir?

### "FƏRQ BÖYÜK DEYİL"

İqtisad elmləri üzrə fəlsəfə doktoru Altay İsmayılovun sözlərinə görə, bu il orta aylıq əməkhaqqının artması ilin əvvəlində minimum əməkhaqqı artımları ilə bağlıdır: "Əvvəl minimum əməkhaqqı 345 manat idi, ilin əvvəlində 400 manata qaldırıldı. Minimum pensiyalar da artırıldı. Əvvəl 280 manat idi, ilin əvvəlindən 320 manat oldu. Digər sosial müavinətlərdə də artımlar baş verdi. Bu artımlar əməkhaqlarına da təsir etdi. 2024-cü ildə isə artımlar iqtisadiyyatın, bazarın tənzimlənməsi ilə baş vermişdi".

A.İsmayılovun fikrincə, dövlət və özəl sektor arasında əməkhaqları bir-birinə yaxındır: "Müəyyən qədər özəl sektorda daha çox ola bilər. Dövlət sektorunda çalışanların orta aylıq əməkhaqqı 1066-1067 manat, özəl sektorda çalışanların isə 1127 manat olub. Bu, elə də böyük fərq deyil. Amma özəl sektorun bütün sahələrində maaşların dövlət sektorundan çox olduğunu demək də düz deyil. Çünki dövlət sektorunda elə sahələr var ki, orada əməkhaqları özəldən daha çoxdur. Məsələn, mədən sənayesi digər peşələrdən fərqlənir. Daha yüksək əməkhaqqı maliyyə, elm-texnologiya sektorundadır".

## "İNFLYASİYA FAİZİ NƏZƏRƏ ALINMAYIB"

Müsahibimiz bildirdi ki, əməkhaqlarının daha da artırılması üçün özəl sektoru inkişaf etdirmək lazımdır: "Amma orta əməkhaqqıda inflyasiya faizi nəzərə alınmayıb. Yəni real artım deyil. Artımlar qiymətləri kompensasiya edəcək səviyyədədir. Dayanıqlı artım üçün bütün hər şeyi dövlətdən gözləmək düzgün olmaz. Çünki dövlət büdcəsinin sadəcə əməkhaqlarının artımına yönləndirilməsi dayanıqlı deyil. Özəl sektor üzərindən əməkhaqlarının artması daha düzgündür. Bunun üçün də özəl sektor inkişaf etdirilməlidir. Maneələr aradan qaldırılmalıdır ki, sahibkarlar investisiya etsinlər".



Altay İsmayılov



## ƏMƏKHAQQINA PEŞƏ VƏ ALİ TƏHSİLİN TƏSİRİ

İqtisadçı Günay Hüseynova isə 2025-ci ilin əməkhaqqı artımını qlobal iqtisadiyyatdakı qiymət artımı, həmçinin də inflyasiyanın sürəti ilə əlaqələndirdi: "İnflyasiyanın sürətinin beş faiz, nominal əməkhaqqı artımının isə 9,5 faiz artmasını nəzərə alsaq, arada +4 faizlik nəticə var. Sırf ali təhsil və ya peşəkarlıq, ustalıq tələb edən sahələrin hesabına orta aylıq əməkhaqqı rəqəmləri dəyişə bilir".

G.Hüseynova dövlət və özəl sektor arasındakı fərqlərə də toxundu: "Dövlət və özəl sektor arasındakı əməkhaqqı arasında real rəqəmlərdə fərq böyükdür. Təbii ki, bu, bütün özəl sektora aid deyil. Dövlət və özəl sektorda çalışanların əməkhaqları arasında bir o qədər də böyük fərq yoxdur. Dövlət sektorunda dövlət qulluqçularının və ya rəhbər vəzifədə çalışanların, özəl sektorda isə maliyyə-sığorta sahəsində çalışanların əməkhaqqı yüksəkdir. Peşə və ali təhsilin əməkhaqqına təsiri daha çox dövlət sektorundadır. Özəl sahədə isə bu bir az fərqlidir".

İqtisadçının fikrincə, hökumətin əməkhaqqı ilə bağlı strateji planı sosial yardımlar, ədalətli vergi islahatına keçid, qeyri-neft sektorunun inkişafına dövlət dəstəyi, ticari tərəfdaşların sayının artırılması, investisiya mühitinə əlverişli şərait görülən işlər çərçivəsindədir.



Günay Hüseynova

# HASİLAT ARTIR, BƏS QİYMƏT?



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



OPEC+ hasilatı artırmaq qərarı verib. Ekspertlərin fikrincə, bu qərar gözlənilən idi. Çünki dünyada neftə tələbat artır. Lakin hasilatın artırılmasının Azərbaycan üçün ciddi risk daşımadığı qənaəti mövcuddur.

OPEC+ hasilatı artırmaq qərarı verib. Tərəfdaş ölkələr noyabrda neft hasilatını sutkada 137 min barel artırmağa razılaşıblar. Məlumata görə, ən böyük artım Səudiyyə Ərəbistanında gözlənilir və burada neft hasilatı sutkada 41 min barel artacaq. Bəs hasilatın artmasına səbəb nədir? Bu, qiymətlərə necə təsir edəcək? Azərbaycan üçün bu dəyişikliklər nəyə səbəb ola bilər?

**“HASİLAT HƏCMLƏRİNİN ARTIRILMASI DOĞRU ADDIMDIR”**

Enerji məsələləri üzrə ekspert Zəfər Vəliyevin sözlərinə görə, OPEC dövlətləri iddia edirlər ki, hasilat artımı sağlam bazar əsasları, xam neft həcmlərinin azalması ilə bağlıdır: “Burada qlobal perspektivlərin qənaətbəxş olmasını vurğulayırlar. İndiki geosiyasi vəziyyətdə bütün enerji bazarlarında neft balansını qoruyub saxlamaq o qədər də asan deyil. Çünki tədarük zənciri demək olar ki, pozulub, neft axını xətləri daim öz istiqamətini dəyişir. Bu baxımdan bazarda uzunmüddətli balansın saxlanması üçün hasilat artımı müsbət addımdır. Hasilatı artıran dövlətlər iddia edirlər ki, son bir neçə ayda həm təyyarə yanacağına, həm dizel yanacağına tələbat durmadan artır. Belə vəziyyətdə hasilat həcmlərinin artırılması doğru addımdır”.

**“HASİLATIN ARTIRILMASI VACİB İDİ”**

Z.Vəliyevin fikrincə, dünyada baş verən proseslər fonunda hasilatın artırılması vacib idi: “Rusiya, İran, Venesuela beynəlxalq sanksiya altındadır. Bu dövlətlərin neft ixracı həcmləri haqqında dəqiq məlumat vermək mümkün deyil. Rusiya-Ukrayna müharibəsinin gedişində Rusiyanın 12-ə yaxın neft emal zavodu yararsız hala düşüb. Neftin ilkin emal qurğuları fəaliyyət göstərmir. Gündəlik 1 milyon bareldən artıq neft emaldan kənar qalıb. Bu neft həcmləri bazara qayıda bilər. Rusiyanın neft ixracına da məhdudiyyətlər var. Əgər sanksiyalar tam gücü ilə davam edərsə, Rusiyanın beynəlxalq ixrac qabiliyyəti məhdudlaşacaq. Bu vəziyyətdə neft bazarlarında yüngül və ağır neft balansı pozulacaq. ABŞ-nin neft hasilatı gələn il də artacaq. Amma onların nefti yüngül neftdir. Bazar payı aşağıdır. Bir çox dövlətlər ABŞ neftinə maraq göstərmirlər. Bazarda qiyməti müəyyən edən dünyada neft emalı güclərinin tələbatına uyğun neft həcmlərinin mövcudluğudur”.



Zəfər Vəliyev

## “Neft qiymətlərində ciddi eniş olmayacaq”

Z.Vəliyev düşünür ki, hasilatın artması qiymətlərə təsir göstərməyəcək: “Neft qiymətlərinin 60-65 dollar civarında dəyişməsi nə istehlakçılara, nə də neft təsisatçılarına sərfəli deyil. Neft ixrac edən ölkələrin fikrincə qiymətlərin 75-80 dollar civarında dəyişməsi neft hasil edən və neft idxal edən ölkələr üçün sərfəlidir. Neft qiymətlərinə təsir edən iki əsas səbəb var: biri geosiyasi vəziyyət, digəri tələb-təklif balansındakı qeyri-müəyyənlik. Bazarda uzun müddət dalğalanmanın olması həm emal güclərinin fəaliyyətinə, həm də neft hasil edən ölkələrin hasilat siyasətinə mənfi təsir edir. O səbəbdən bazarda uzun müddətli sabitliyin qalması vacibdir. 2026-cı ildə neft qiymətlərində elə də ciddi eniş gözlənilmir. Qarşıdakı illərdə neftə olan tələbatın azalması da gözlənilmir. Tələbatın pik dövrü 2030-cu ildən sonra baş verəcək. O dövrə kimi hər il neft hasilatında artım baş verməlidir”.

## Azərbaycan bazarına təsiri

Z.Vəliyev hasilatdakı dəyişikliklərin Azərbaycan bazarına təsirindən də danışdı: “Azərbaycanın 2025-ci ilin iyun ayına kimi sutkalıq neft hasilatı 464 min barel təşkil edib. Sentyabr ayında 462 min civarındadır. Azərbaycan OPEC dövlətlərinin təyin etdiyi kvotaya əməl edə bilmir. Hasilat kvotamız 2026-cı ilə kimi gündəlik 551 min bareldir. Cari ilin yanvar-avqust aylarında 18 milyon 391 min ton xam neft hasil edilib. Bu, keçən illə müqayisədə 4,8 faiz azdır. Deməli hər il hasilatımız azalır. Düşünürəm ki, investisiya yönəldilərsə, Azərbaycanda neft hasilatını bir müddət sabit saxlamaq mümkündür. Azərbaycan nefti Qara və Aralıq dənizi regionunda yüksək tələbatlı neft olduğundan brend etalon markalı neftə nisbətdə premiya ilə satılır. Yəni üzərinə 2 dollar 58 sent əlavə edilir. O səbəbdən Azərbaycan neftinin də kəskin ucuzlaşması mümkün deyil”.

**“NEFT HASİLATIMIZ AZALIR”**

İqtisadçı Eldəniz Əmirov da düşünür ki, OPEC+ tərəfindən neft hasilatını artırmaq ilə bağlı qərar gözlənilən idi: “Çünki Rusiyaya qarşı sanksiyaların artması, Rusiyanı sanksiyalardan yayındırmağa cəhd edən ölkələrin qarşısının alınması nəticədə qlobal bazarlarda neft təklifi həcmini azaldır. Belə bir məqamda neft hasilatı həcmlərinin artırılması gözlənilirdi. Bu qərar ABŞ tərəfindən də dəstəklənib. Yaxud ABŞ tərəfindən istiqamətləndirildikdən sonra belə qərara gəlinib”.

E.Əmirovun sözlərinə görə, neft həcmlərinin artırılması Azərbaycan üçün o qədər də uğurlu olmayacaq: “Azərbaycan OPEC+ ayırdığı kvota həcmində neft hasil edə bilmir. Azərbaycanın neft hasilat həcmləri getdikcə azalmaqdadır. Hasilat artırılmasaydı da mövcud kvota Azərbaycan üçün yetərli idi. Amma kvotanın artırılması ölkəmiz üçün sərfəli deyil. Çünki həcmlərin artırılması neft qiymətlərinə mənfi təsir göstərəcək. Bu isə Azərbaycan üçün arzuolunan deyil”.



Eldəniz Əmirov

TİBBİ ONKOLOGİYA UZMANI ALTAY ƏLİYEV: "ÇOX İŞLƏNMİŞ VƏ YÜKSƏK ŞƏKƏRLİ QİDALAR XƏRÇƏNG RİSKİNİ ARTIRIR"

# YAŞ ARTDIQCA XƏRÇƏNG RİSKİ HƏNDƏSİ SİLSİLƏ İLƏ YÜKSƏLİR



SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Altay Əliyev:** "Xərçəngin qarşısını almaq və erkən diaqnoz vasitəsilə xəstəliyin riskini azaltmaq mümkündür. Sadaladığımız önlənə bilən risk faktorlarından uzaq durmaq və sağlam həyat tərzini qorumaqla, statistik olaraq yeni xəstələrin təxminən üçdə birinin xəstəliyinin qarşısını almaq olar. Əgər xəstəlik artıq yaranıbsa, erkən diaqnoz vasitəsilə bir qrup xəstəni tamamilə xərçəngdən qurtarmaq realdır".

Dövlət Statistika Komitəsinin "Azərbaycan gəncləri" məcmuəsində yer alan məlumata görə, ötən il bədxassəli şiş aşkarlanan gənclərin sayı artıb. Belə ki, 2024-cü ildə 14-29 yaş aralığında 393 gəncdə bədxassəli şiş aşkarlanıb. 2023-cü ildə isə bu rəqəm 296 olub. Xüsusilə, 18-29 yaş arasında bu göstərici yüksəkdir. Maraqlıdır, dövrün "bəla"sı olan bu xəstəlik niyə gəncləri hədəf alır?

Xərçəngin yaranma səbəbləri, risk faktorları və gənclərin niyə xüsusilə risk altında olması məsələlərini "Liv Bonadea" Xəstəxanası Onkologiya şöbəsinin müdiri, tibbi onkologiya uzmanı Altay Əliyevlə müzakirə etdik.

**"YAŞ ARTDIQCA, XƏRÇƏNG RİSKİ DƏ ARTIR"**

● **Altay bəy, dünyada hər il təxminən 20 milyon insana yeni xərçəng diaqnozu qoyulur. Ümumiyyətlə, xərçəng hüceyrələri necə yaranır? Nə baş verir ki, normal hüceyrələr nəzarətdən çıxır?**

● Xərçəng anormal mutant hüceyrələrin sürətli və nəzarətsiz şəkildə çoxalması nəticəsində yaranan hüceyrə toplusudur. Bu anormal hüceyrələr risk faktorlarının təsiri ilə yaranır. Risk faktorları hüceyrənin genetik informasiyası olan DNT-yə təsir etdikdə, anormal hüceyrələr meydana gəlir. Normal halda bədən bu hüceyrələri təkamül prosesində formalaşmış apoptoz adlı özünümüdafiə mexanizmi və ya immun sistem vasitəsilə məhv edir. Lakin bu mexanizmlər uğursuz olduqda, bədəndə xərçəng prosesi başlayır. Yəni, xərçəng risk faktorlarının təsiri nəticəsində yaranan, bədənin nəzarət mexanizmlərindən qaçaraq sürətlə çoxalan anormal hüceyrə toplusudur.

● **Hansı risk faktorları bu hüceyrə toplusunu yaradır?**

● Bir çox risk faktorları var. Bunlara yaş və cinsiyyət, genetik meyillik və ailə tarixçəsi, ətraf mühit amilləri, radiasiya və günəş şüaları, oturaq həyat tərzi, piylənmə (obezite) və bəzi bakteriyaların inkişafı daxildir. Ən önəmli risk faktoru isə yaşdır. Yaş artdıqca insanlarda paralel olaraq, xərçəng riski də artır. Amma son 20-30 ildə gənclərdə öncəki illərlə müqayisədə xərçəngin görülmə intensivliyi artıb.

**PİYLƏNMƏ, YUXUSUZLUQ, STRES...**

● **Nə üçün? 20-30 ildə nə dəyişdi ki, əsas risk faktoru yaşın getdikcə artması olan bu xəstəlik gəncləri hədəf almağa başladı?**

● Gənclərdə xərçəngin görülmə sıxlığı artsa da, yaş hələ də əsas amildir. Yaş artdıqca xərçəng riski həndəsi silsilə ilə yüksəlir. Sadəcə, gənclərdə görülmə tempi artıb. Bunun bir neçə səbəbi var. Birincisi həyat tərzi, yəni qeyri-sağlam qidalanma, siqaret və alkoqol istifadəsidir. İkinci səbəb, ətraf mühit faktorları və toksinlər, üçüncü isə genetik meyillilik və infeksiyalardır. Çox az hallarda artımın səbəbi diaqnostik metodların inkişafıdır. Məsələn, əvvəllər fərq edilməyən və ya daha gec diaqnoz qoyulan xəstəliklər indi erkən aşkarlanır. Lakin statistik analizlər göstərir ki, diaqnostik metodların inkişafını nəzərə aldıqda belə, gənclərdə bəzi xərçəng növlərinin artım meyli davam edir. Həmçinin xərçəngin görülmə sıxlığının artmasının ən önəmli, lakin tez-tez gözardı edilən səbəblərindən biri yuxusuzluqdur. Yetərsiz və keyfiyyətsiz yuxu hüceyrələrin bərpasını və immun sistemin fəaliyyətini zəiflədir. Son 50-100 ildə dünya əhalisinin yuxu rejimində ciddi pozuntular və keyfiyyətli yuxu müddətində azalma müşahidə olunur. Eyni zamanda, artmış sosial stres də bu prosesə əlavə yük gətirir və xərçəng riskinin artmasına təsir edir. Digər səbəb isə akselerasiya, yəni fiziki cinsi inkişafın əvvəlki nəsillərə görə daha sürətli olmasıdır. Bu sürətli inkişafın əsas səbəbləri sosial amillər, düzgün və zəngin qidalanma, yaxşı həyat şəraiti, tibbi xidmətlərin inkişafı, gigiyenik şəraitin yaxşılaşdırılmasıdır. Akselerasiya orqanizmin hormonal və hüceyrə səviyyəsində daha tez inkişaf etməsinə səbəb olur ki, bu da bəzi xərçəng növlərinin riskini artıran amillərdən biri hesab edilir. Bundan əlavə, stres faktorunu xüsusilə, vurğulamaq istəyirəm. Stres bədəndə böyrəküstü vəz hormonları olan katexolaminlər və kortizol səviyyəsini artırır. Bu isə immun sistemin tarazlığını pozur. Orqanizmimizdə anormal hüceyrələri yox edən immun sistemi bədənimizin əsgərləridir. Stres halında onların fəaliyyəti azalır, tarazlıq pozulur və anormal hüceyrələr çoxalır.





● **Gözardı edilən səbəblərdən birinin yuxusuzluq olduğunu qeyd edirsiniz. Maraqlıdır, dünyada yuxu keyfiyyətinin sürətli şəkildə pozulmasının səbəbi nədir?**

● Bəli. Araşdırmalar göstərir ki, 1905-2008 illər arasında gənc və orta yaşlı insanların orta yuxu müddəti əvvəlki dövrlərə nisbətən təxminən bir saat azalıb. Xüsusilə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə gecə növbələri və gecə işləmə rejimləri yuxu saatlarının azalmasına səbəb olub. İngiltərədə 50 yaşdan yuxarı 10 minlərlə insanın məlumatları əsasında aparılan araşdırmada göstərilib ki, yuxu keyfiyyətinin pozulması ilə xərçəng sıxlığı arasında mütənasib artım mövcuddur. Bəzi mütəxəssislər hesab edir ki, telefonlar, planşetlər, daimi işıqlandırma və küçə lampaları beynin daimi oyaq qalmasına səbəb olur, bu isə davamlı stres və yuxu keyfiyyətinin pozulması ilə xərçəng riskini artırır.

● **Xərçəngin gəncləri hədəf almasının əsas səbəblərindən biri uşaqlıq və yeniyetməlik dövründə qidalanma vərdişləridir deyirsiniz. Bilirsiniz ki, ölkədə bir çox ailələrdə toppuş uşaq sağlam uşaq hesab olunur. Uşaqların qidalanmasında valideynlərin etdiyi səhvlər nədir?**

● Artıq çəki bədəndə davamlı iltihab (inflamasiya) yaradır. Bu iltihab xərçəngin yaranma mexanizmini tətikləyən mühiti təmin edir. Yəni artıq çəki immun sistemini zəiflədir və bədəndə anormal hüceyrələrin yaranmasına səbəb olur. Çox işlənmiş qidalar və yüksək şəkərli qidalar insulin dirəncinə səbəb olur və xərçəng riskini artırır, çünki xərçəng hüceyrələrinin əsas "qidası" qlükozadır. Uşaqların və yeniyetmələrin çox sevdiyi fast food, burger, cips, kraker, biskvit və yanmış qəhvə kimi yüksək temperaturda hazırlanmış qidalarda akrilamid maddəsi yaranır. Akrilamid və onun metaboliti glisidamid hüceyrə DNT-sinə təsir göstərərək mutasiyalara səbəb ola bilər. Əgər bədənin qoruyucu mexanizmləri bu mutasiyalara malik hüceyrələri məhv etməzsə, xərçəng prosesi başlayır. Xüsusilə, Qərb diyeti adlanan "fast food" və yüksək işlənmiş qidalar bağırsaq mikroflorasının tarazlığını pozur. Bunun nəticəsində aqressiv bakteriya tipləri artır və bu, bağırsaq xərçəngi riskinin yüksəlməsinə səbəb olur.

**"YENİ XƏRÇƏNG DİAQNOZLARI 79 FAİZ ARTIB"**

● **Gənclər arasında hansı xərçəng növlərinə daha çox rast gəlinir?**

● Amerika Onkologiya Cəmiyyətinin yeni araşdırmasına görə, tibbin və onkologiyanın inkişafı sayəsində qadınlarda süd vəzi xərçənginə bağlı ölümlər son on ildə təxminən 10 faiz azalıb. Lakin 50 yaşdan aşağı süd vəzi xərçənginin görülmə nisbəti hər il 1,4 faiz artıb. Başqa bir tədqiqatda isə deyilir ki, 1990-2019 illəri arasında gənc yaşda yeni xərçəng diaqnozları 79 faiz artıb. Gənclər arasında süd vəzi, mədə, kolon (qalın bağırsaqda başlayan xərçəng növü), serviks (uşaqlıq boynu xərçəngi), tiroid, ağciyər xərçənginə daha çox rast gəlinir. Bu yaş kateqoriyasında xərçəngin görülmə tezliyi təkcə inkişaf etmiş ölkələrdə deyil, dünya üzrə diqqət tələb edən ciddi bir tendensiyadır. Son illərdə əvvəllər daha çox 60 yaşlarında rast gəlinən bəzi xərçəng növlərinin görülmə nisbəti 20-li yaşlarda artmaqdadır. Bu xoş gəlməyən artım bütün dünya əhalisində müşahidə olunur və ölkələrin sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq, eyni tendensiya davam edir.

## XƏRÇƏNGİ QİDALANDIRAN AMİLLƏR

● **Risk faktorlarından biri də qeyri-sağlam qidalanmadır. Ümumiyyətlə, işlənmiş və yüksək temperaturda hazırlanmış qidalar xərçəngi necə qidalandırır?**

● Bəli. Yüksək temperaturda hazırlanmış və yanmış qidalar (cips, kraker, burger, biskvit, yanmış qəhvə) akrilamid və onun metaboliti glisidamid ehtiva edir. Bu maddələr DNT-yə genotoksik təsir göstərərək mutasiyalara səbəb olur və xərçəng riskini artırır. Sosis və kolbasa kimi yarıfabrikat ət məhsullarına əlavə edilən nitrit və nitratlar ətin rəngini və uzunömürlülüyünü qorumaq üçün istifadə olunur. Standartlardan yüksək miqdarda olduqda və yüksək temperaturda bişirildikdə, bu maddələr nitrozaminlərə çevrilir, mədə və bağırsaq xərçəngi riskini artırır. Polisiklik aromatik hidrokarbonlar (PAH) ət və balıq məhsullarının tüstülənməsi, hisə verilməsi və yüksək temperaturda bişirilməsi zamanı yaranır. Bu maddələr DNT zədələnməsinə və mutasiyaya səbəb olaraq xərçəng riskini yüksəldir. Araşdırmalar göstərir ki, hər gün işlənmiş ət istehlakı bağırsaq xərçəngi riskini təxminən 20 faiz artırır. Tövsiyə olunur ki, işlənmiş ət həftədə ən çox 1 dəfə istehlak edilsin. Bundan əlavə, işlənmiş qidalarda istifadə olunan rəngləndiricilər və emülqatorlar bağırsaq traktında iltihabı (inflamasiya) artıraraq hüceyrələrdə DNT zədələnməsinə və xərçəng riskinə səbəb olur.

● **Erkən yaşda spirtli içki və siqaret xərçəng riski yaradırmı?**

● Bəli. Siqaret və alkoqol xərçəng riskini artırır. Tütün dumanında çoxsaylı kanserogen maddələr var ki, bunlar birbaşa hüceyrə DNT-sində mutasiyalara səbəb olur. Bunlara nitrozaminlər, benzopiren və karbon monoksit daxildir. Dünya Səhiyyə Təşkilatının statistikasına görə, xərçəngə bağlı ölümlərin ən az beşdə biri siqaretlə əlaqəlidir. Alkoqol hüceyrə DNT-sinə toksik təsir göstərərək mutasiyalara yol açır, xüsusilə qaraciyər və mədə xərçənglərinin riskini yüksəldir. Spirt həmçinin estrogen hormon səviyyəsini artırır, bu da süd vəzi və digər ginekoloji xərçənglər üçün risk yaradır.

● **Əgər insan özü siqaret çəkmir, amma ətrafındakı insanlar onu tüstüyə məruz qoyursa, bu da risk faktorudurmu?**

● Əslində, o, passiv siqaret çəkməkdir. Passiv siqaret çəkən şəxslərdə də xərçəng riski mövcuddur. Siqaret dumanındakı kanserogen maddələr birbaşa tənəffüs yollarında mutasiyalara səbəb olur, qırtlaq və bronxlarda anormal hüceyrələrin yaranmasına yol açır. Əlbəttə, birbaşa siqaret çəkən şəxslərdə bu risk daha yüksəkdir, amma passiv çəkənlər də risk qrupuna daxildir. Məsələn, gündə bir paket siqaret çəkən və 25 ildir bu vərdişi davam etdirən şəxslərdə illik ağciyər tomoqrafiyası (KT) tövsiyə olunur. Bundan əlavə, hava kirliliyi də tənəffüs yollarında anormal hüceyrələrin yaranmasına səbəb olan əsas risk faktorudur. Beynəlxalq araşdırmalar göstərir ki, şəhərlərdəki yüksək çirklilik dərəcəsi siqaret kimi tənəffüs yollarına zərər verərək xərçəng riskini artırır.

*"Əvvəllər fərq edilməyən və ya daha gec diaqnoz qoyulan xəstəliklər indi erkən aşkarlanır. Lakin statistik analizlər göstərir ki, diaqnoz metodların inkişafını nəzərə aldıqda belə, gənclərdə bəzi xərçəng növlərinin artım meyli davam edir."*



## Erkən diaqnozun əhəmiyyəti

● **Xəstəliyin tez aşkarlanması, ümumiyyətlə qarşısının alınması üçün gənclərə tövsiyələriniz nələrdir?**

● Xərçəngin qarşısını almaq və erkən diaqnoz vasitəsilə xəstəliyin riskini azaltmaq mümkündür. Sadaladığımız önlənə bilən risk faktorlarından uzaq durmaq və sağlam həyat tərzini qorumaqla, statistik olaraq yeni xəstələrin təxminən üçdə birinin qarşısını almaq olar. Əgər xəstəlik artıq yaranıbsa, erkən diaqnoz vasitəsilə bir qrup xəstəni tamamilə xərçəngdən qurtarmaq realdır. Ailədə xərçəng xəstəsi varsa, ailənin digər üzvlərinə mədə və bağırsaq endoskopiyası 25 yaşdan etibarən tövsiyə olunur. Genetik risk faktorları varsa, genetik konsultasiya alınmalıdır. Qadınlarda serviks müayinəsi (Uşaqlıq boyu xərçəngi) 21 yaşdan etibarən hər üç ildə bir aparılmalıdır. 25 yaşdan etibarən qadınlar öz-özünə aylıq süd vəzi müayinəsi vərdişi yaratmalı, 30 yaşdan sonra isə illik həkim kontrolu tövsiyə olunur. Ümumi sağlamlıq üçün illik müayinə və qan analizləri aparılmalı, Hepatit B, C və HPV virus analizləri edilməli, həmçinin Hepatit B və HPV-yə qarşı vaksinasiya həm önləyici, həm də kontrol məqsədilə həyata keçirilməlidir. Sağlam həyat tərzi üçün əsas tövsiyələrə bol tərəvəz və lifli qidaların qəbulu, yetərli yuxu, müntəzəm fiziki aktivlik (idman, təbiət yürüşləri), stressdən uzaq qalmaq, artıq çəkidən qorunmaq, riskli qidalar və zərərli vərdişlərdən uzaq durmaq daxildir.

● **Erkən diaqnoz üçün mövcud imkanlar yetərlidirmi?**

● Erkən diaqnoz üçün öncə fərqindəlik artırılmalıdır. İnsanlar xərçəngin müəyyən nisbətdə önlənə biləcəyini və erkən diaqnoz həyat qurtarıcı olduğunu bilməlidirlər. Bu məqsədlə media mühüm rol oynayır, lakin mesajlar fobiya yaratmadan, düzgün şəkildə çatdırılmalıdır. Tibbi profilaktik kontrollar daha əlçatan olmalı və xatırladıcı mesajlar, istər SMS, istərsə də sosial media vasitəsilə insanlara çatdırılmalıdır. Sığortalı xidmətlərdə profilaktik nəzarətə daha çox önəm verilməli və təşviq edilməlidir. Çünki mövcud sığorta və tibbi qurumlar tez-tez yalnız müalicəvi prosedurları ön plana çıxarır. Erkən diaqnostika, skrininq və önləyici xidmətlər diqqətdən kənarda qalmamalıdır ki, xəstəlik vaxtında aşkarlansın və müalicə şansı artsın.



# “Azneft” Sinqapur şirkətləri ilə memorandum imzalayıb

Razılaşmaya əsasən, “Azneft”in strukturuna daxil olan neft və qazçıxarma idarələrinin qazyığım və nəql sistemində istismar edilən separatorların mövcud rejimlərə uyğun modernləşdirilməsi həyata keçiriləcək.

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) “Azneft” İstehsalat Birliyi ilə Sinqapurun “Kranji Solution” və “MySep Pte” şirkətləri arasında Anlaşma Memorandumu imzalanıb.

“Report” “Azneft”ə istinadən xəbər verir ki, sənədi “Azneft” İB-nin baş mühəndisi-baş direktorun birinci müavini Tofiq Heydərov, “Kranji Solution” şirkətinin texniki direktoru Michel van Vorselen və “MySep Pte” şirkətinin rəhbəri Guy Hellinx imzalayıblar.

**ON NƏFƏR ƏMƏKDAŞA TƏLİM KEÇİRİLƏCƏK**

Razılaşmaya əsasən, “Azneft”in strukturuna daxil olan neft və qazçıxarma idarələrinin qazyığım və nəql sistemində istismar edilən separatorların mövcud rejimlərə uyğun modernləşdirilməsi həyata keçiriləcək, həmçinin sahə üzrə 10 nəfər əməkdaşa təlim keçiriləcək.

Nəticədə separatorların layihələndirilməsi, nasazlıqların aradan qaldırılması, uyğunluq və güc artımı ilə bağlı yoxlamalar yerli mütəxəssislərimiz tərəfindən müstəqil şəkildə həyata keçiriləcək, yığım və nəql sistemlərində mürəkkəbləşmə riskləri minimuma endiriləcək.

Qeyd edək ki, “Kranji Solutions” 2008-ci ildə Sinqapurda neft və qaz sənayesinə ayrılması üzrə müstəqil məsləhət xidmətləri göstərmək üçün yaradılıb. Şirkətin təsisçiləri öz bacarıq və təcrübələrini aparıcı ayırma texnologiyası şirkəti olan “CDS Engineering BV”də təkmilləşdirdilər. 2007-ci ildə CDS və onun əqli mülkiyyəti FMC tərəfindən alınıb.



## PROBLEMLƏRİN ARADAN QALDIRILMASINDA İXTİSASLAŞAN ŞİRKƏT

“Kranji Solutions” ilkin olaraq bütün dünya üzrə operatorlar və xidmət şirkətləri üçün ayırma prosesləri və problemlərin aradan qaldırılmasında ixtisaslaşıb və 2010-cu ildə laboratoriya tədqiqatı və sınaq imkanları əlavə edilib. Proseslərin təhlili və hesablama maye dinamikasının (CFD) modelləşdirilməsini əhatə edən sahə işlərinə kömək etməklə yanaşı, “Kranji Solutions” indi müştərilərə müqavilə üzrə tədqiqat və ixtisaslaşdırılmış ayırma avadanlığının işlənməsini, həmçinin CFD proqnozlarının fiziki təsdiqini təklif edir.

2011-ci ildə “Kranji Solution” iki və üç fazalı separatorların qiymətləndirilməsi və layihələndirilməsi üçün proqram olan “MySep” proqramını buraxıb. Bu proqram təminatı illərin təcrübəsini, ən yaxşı təcrübələri və daxili tədqiqatlardan əldə edilən xüsusi modelləri və korrelyasiyaları təcəssüm etdirir. 2013-cü ildə “Kranji Solution” “MySep Pte Ltd”dən ayrılaraq proses dizayn proqram təminatı bazarına diqqət yetirmək üçün ayrıca şirkətə çevrilib.

# “NAR” ANALİTİK NƏŞRƏ DƏSTƏK VERİB



Sərfəli mobil operator “Nar” Alman-Azərbaycan Ticarət Palatası (AHK Azərbaycan) və “Germany Trade & Invest”in (GTAI) əməkdaşlığı ilə hazırlanan “Market Analysis Azerbaijan 2025–2026 – Industry Profiles and Investment Trends” adlı yeni nəşrin çapına dəstək olub. Bu nəşr Azərbaycanın iş dünyası nümayəndələri üçün etibarlı informasiya mənbəyi kimi ölkəmizin iqtisadiyyatında baş verən əsas inkişaf tendensiyalarını və gələcək investisiya imkanlarını təqdim edir.

Nəşr Azərbaycanın iqtisadi mənzərəsini əhatəli şəkildə təqdim edərək yerli və xarici investorlar üçün dəyərli bələdçi rolunu oynayır. Topluda ölkə iqtisadiyyatının on bir əsas sektoru – bərpa olunan enerji, neft-qaz, tikinti, kənd təsərrüfatı, səhiyyə, maliyyə, İKT, nəqliyyat, gəmiqayırma, mədən və su təsərrüfatı sahələri üzrə vəziyyət və perspektivlər ətraflı təhlil olunub. Həmçinin Qarabağın bərpası, sənaye zonaları və Bakı şəhərinin baş planı kimi istiqamətlər də ayrıca bölmələrdə işıqlandırılıb. Nəşr alman və ingilis dillərində pulsuz təqdim olunur və AHK Azərbaycanın rəsmi vebsaytından yükləmək mümkündür.

Bu layihəyə dəstək verməklə “Nar” Azərbaycanın iqtisadi inkişafı və beynəlxalq biznes əlaqələrinin güclənməsinə töhfə verməyi, həmçinin ölkədə bilik əsaslı və davamlı iqtisadi mühitin formalaşmasına dəstək göstərməyi hədəfləyir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# ƏRAZİ VAHİDLƏRİNƏ ADLAR BU QAYDADA VERİLƏCƏK

Milli Məclis ərazi vahidlərinə ad verilməsi və onların adlarının dəyişdirilməsi zamanı dövlət dilinin normalarının nəzərə alınması haqqında qanun layihəsini təsdiqləyib. “Report” xəbər verir ki, bununla bağlı “Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında” qanuna dəyişiklik layihəsi parlamentin plenar iclasında müzakirə edilib.



Belə ki, prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə və onların adlarının dəyişdirilməsi həmin ərazinin əhalisinin rəyi və dövlət dilinin normaları nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçiriləcək.

Xatırladaq ki, hazırda prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və onların adlarının dəyişdirilməsi həmin ərazinin əhalisinin rəyi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Üç əsrin qəzeti Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 2088
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

İmtahan nəticələrinin yoxlanılmasında süni intellektdən istifadə planlaşdırılır

# ELEKTRON İMTAHANA KEÇİD BİZƏ NƏ VERƏCƏK?

Növbəti illərdə Azərbaycanda qəbul imtahanlarının tamamilə elektronlaşdırılması nəzərdə tutulur. İmtahan nəticələrinin yoxlanılmasında süni intellektdən istifadə də planlaşdırılır. Amma bunun üçün hüquqi tənzimləmə, insan resursları və təhlükəsizlik mexanizmlərinin də hazır olması vacibdir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Ölkəmizdə bütün imtahanların elektron şəkildə keçirilməsi nəzərdə tutulur. Həmçinin qəbul imtahanlarında imtahan nəticələrinin yoxlanılmasında süni intellektdən istifadə genişləndiriləcək. Bu sistemin tətbiqi üçün beş il vaxt lazım olacağı proqnozlaşdırılır. Bu barədə Dövlət İmtahan Mərkəzinin (DİM) sədri Məleykə Abbaszadə bildirib. İndi sual yaranır ki, DİM-in texnoloji bazası bu prosesə nə qədər hazırdır? Və ya yeni sistemdə imtahan nəticələrinin tam şəffaflığına etimad olacaqmı?

### "SÜNİ İNTELLEKTİN ROLU ARTACAQ"

Bizi maraqlandıran suallara birbaşa DİM sədrinin özündən cavab aldıq: "Bu il ərzində dövlət qulluğu imtahanları elektron formatdadır. İşə qəbul, sertifikasiya imtahanlarının hamısını da elektron formata keçirəcəyik. Peşəkar mühasib imtahanlarını keçirmiş və ictimaiyyətə təqdim etmişdik. Rus bölməsində Azərbaycan dili imtahanlarının da elektron formata keçirmək fikrindəyik. Magistr imtahanlarını da elektron formatda keçirəcəyik. Bu imtahanlar yaqin ki, bir neçə mərhələdə - ingilis dili, informatika və məntiq-təfəkkür fənləri ayrıca olacaq. Tam kütləvi - buraxılış və qəbul imtahanlarını elektron formata keçirmək üçün biz gərək Elm və Təhsil Nazirliyi ilə birgə işləyək".

İmtahan nəticələrinin yoxlanılmasında süni intellektin istifadəsinə gəlincə, sədr bildirdi ki, burada xüsusi avadanlıqlar xüsusi proqram təminatına əsaslanır: "Nəticələrə insanın təsiri olmasın deyə, bu alqoritmlər yazılır, yoxlanılır və tətbiq olunur. Amma "proses yalnız süni intellektin roludur", - demək olmaz. Kifayət qədər mexaniki işlər var - onları robot görmür, işçi qrupu həyata keçirir. Düşünürəm ki, elektron imtahanlara keçəndən sonra prosesdə süni intellektin rolu kifayət qədər artacaq. Bu, xüsusən imtahan nəticələrinin yoxlanması zamanı tətbiq olunacaq".



Orxan Kərimzadə

## HÜQUQİ TƏNZİMLƏMƏ, İNSAN RESURSLARI VƏ TƏHLÜKƏSİZLİK MEXANİZMLƏRİ

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, ADA Universitetinin baş müəllimi Orxan Kərimzadə hesab edir ki, bütün imtahanların tam şəkildə elektronlaşdırılması üçün yalnız texniki infrastruktur yetərli deyil. Eyni zamanda, hüquqi tənzimləmə, insan resursları və təhlükəsizlik mexanizmlərinin də hazır olması vacibdir: "DİM-in mövcud texniki bazası müəyyən qədər yetərlidir: on minlərlə şagirdin eyni anda elektron imtahana daxil olması, nəticələrin avtomatik emalı və idarəetmə sistemlərinin işləməsi buna sübutdur. Ancaq prosesin 100% elektronlaşdırılması üçün regionlardakı məktəb və mərkəzlərin texniki imkanlarının da gücləndirilməsi, yüksək sayda ehtiyat serverlər və informasiya təhlükəsizliyi sistemlərinin qurulması, eyni zamanda elektron qiymətləndirmə alqoritmlərinin şəffaflığı və etibarlılığı təmin olunmalıdır. Elektron imtahanın mexanizmi ilə yanaşı, insan faktorunu və ictimai etimadı nəzərə alaraq, narazılıqların araşdırılması üçün açıq apellyasiya sisteminin qalması, test bazalarının müntəzəm yenilənməsi və pilot sınaqların keçirilməsi bu keçidin uğurla tamamlanması üçün vacib olacaq".

O.Kərimzadənin fikrincə, bu sistemlərin tətbiqi daima insan nəzarəti ilə müşayiət olunmalıdır: "Çünki alqoritmlər müəyyən hallarda kontekstual məqamları düzgün dəyərləndirməyə, dil və ifadə müxtəlifliyi, xüsusilə də esse cavablarında qeyri-dəqiqlik edə bilər. Bu səbəbdən süni intellekt yeganə qərarverici mexanizm kimi yox, yardımçı alət kimi istifadə olunmalıdır".

### "DİM-İN ELEKTRON BAZASI BEŞ İL ƏRZİNDƏ YETƏRLİ OLA BİLƏR"

ABŞ-də çalışan təhsil eksperti Qoşqar Məhərrəmov da bildirdi ki, inkişaf etmiş ölkələrin əksəriyyətində imtahanların elektronlaşdırılması təcrübəsi var: "Artıq insanlar imtahanı kağız üzərindən yox, kompüter üzərindən verəcək. Aşağı siniflərdən etibarən şagirdlər məktəbin onlara verdiyi laptoplar, xüsusi brauzerlərlə daxil olur, həmin an da sistemdən çıxa, "google"a girə bilmirlər. Ekranda şagirdin və ya abituriyentin qarşısına çıxan sual başqa şagirdin qarşısına çıxmır. Bu, testin əslində daha etibarlı olmasına gətirib çıxarır. Amma kənar müdaxilələr hər zaman ola bilir".

Ekspertin fikrincə, DİM-in elektron bazası beş il ərzində yetərli ola bilər: "Çünki elektron xidmətlər mühəndislik işidir. Kodlaşdırma yüksək texnologiya sayılır, yerli və xarici mühəndislərin əməyi ilə bunu etmək çətin deyil".



## "KEÇİD ÜÇÜN ƏLAVƏ İNVESTİSİYALARA EHTİYAC OLACAQ"

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasovun sözlərinə görə, Azərbaycan təhsil sistemində elektron imtahanlara keçid artıq bir neçə ildir ki, mərhələli şəkildə həyata keçirilir: "Lakin ölkə üzrə bütün imtahanların elektronlaşdırılması üçün yalnız texniki infrastruktur deyil, həm də təhlükəsizlik, hüquqi mexanizmlər, müəllim və şagirdlər üçün texnoloji hazırlıq, eləcə də sosial bərabərlik məsələləri nəzərə alınmalıdır. Elektron bazanın genişmiqyaslı tətbiqi üçün əlavə investisiyalara, bulud əsaslı sistemlərin inteqrasiyasına və texniki heyətin davamlı inkişafına ehtiyac var". Sədr hesab edir ki, süni intellektin imtahan nəticələrinin qiymətləndirilməsi və sualların təhlili prosesində tətbiqi təhsildə obyektivliyin artırılmasına mühüm töhfə verir: "Xüsusilə açıq tipli sualların və esse tipli cavabların yoxlanmasında süni intellekt texnologiyaları mətnin məna strukturu və məntiqi ardıcıllığını analiz edə bilir. Bu isə insan faktorundan qaynaqlanan subyektivliyi minimuma endirir".

AİKTSA sədri bildirir ki, elektron imtahan prosesi ənənəvi imtahanlarla müqayisədə daha çevik və vaxt baxımından səmərəlidir.



Elvin Abbasov

Foto: Sabir Məmmədov
Global Photostock

# QANUNSUZ ƏYLƏNCƏNİN QURBANLARI

Bu ilin sentyabrında qəbul edilən yeni qərara əsasən, ictimai iaşə müəssisələrində vəhşi heyvanların nümayiş etdirilməsi qadağan edilib. Restoranlar bu sahədəki qaydalara əməl etdiklərini bildirsə də, ekspertlər heyvan hüquqlarının pozulduğunu vurğulayırlar.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Bakı-Şirvan avtomobil yolunda yerləşən "Qədir Xum", Pirsaat qəsəbəsində yerləşən "Fədək" restoranında Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları monitorinq keçirib. Monitorinq zamanı restoranlarda olan vəhşi heyvan və quşların növü, eləcə də miqdarı müəyyən edilib. Sahibkarlıq subyektlərinə quşların xüsusi mühafizə olunan təbiət ərazilərinə və ya heyvan rifahı tələblərinə cavab verən heyvan parklarına təhvil verilməsi, quşların saxlandığı yerlərdə təmizlənmə, dezinfeksiya və digər baytarlıq-sanitariya tədbirlərinin görülməsi ilə bağlı tapşırıqlar verilib. Bəs heyvanların bu şəkildə nümayişi nə dərəcədə doğrudur? Qanunvericilikdə bu hallar necə tənzimlənir?

### "VƏHŞİ HEYVANLARIN VƏ QUŞLARIN NÜMAYİŞ ETDİRİLMƏSİ QADAĞAN EDİLİB"

AQTA-dan sorğumuza cavab olaraq bildirildi ki, son dövrlər ictimai iaşə müəssisələri və ailəvi istirahət mərkəzlərində müxtəlif növ vəhşi heyvanların və quşların saxlanaraq nümayiş etdirilməsi hallarının geniş yayıldığı müşahidə olunur: "Bu hal heyvan və quşların insanlarla təması və zoonoz xəstəliklərin törədicilərinin insanlara ötürülməsi, habelə ölkədə bioloji təhlükəsizliyin pozulması risklərini meydana gətirir. Yaranan təhlükənin qarşısının alınması məqsədilə "Zoonoz xəstəliklərin baş vermə riskinin aradan qaldırılması üçün baytarlıq nəzarətinin gücləndirilməsi haqqında" qərara əsasən, bu il sentyabrın 25-də vəhşi heyvanların və quşların ictimai iaşə müəssisələrində və ailəvi istirahət mərkəzlərində saxlanması və nümayiş etdirilməsi qadağan edilib. Bununla əlaqədar, ictimai iaşə müəssisələrində, ailəvi istirahət məkanlarında Qida Təhlükəsizliyi Agentliyi tərəfindən monitorinqlər keçirilir".

### Restoranların cavabı

"Qədir Xum" restoranından bildirildi ki, onlarda vəhşi quşlar və heyvanlar yoxdur: "Quşlar açıq şəkildə saxlanılır. Ən böyük quşumuz Tovuz quşu, hind toyuqlarıdır. Meymunlarımız da var. Keçən həftə Qida Təhlükəsizliyi Agentliyindən gəlib monitorinq keçirdilər. Məsələ araşdırılıb və həll edilib. Müvafiq quruma bütün məlumatları vermişik".

"Fədək" restoranından verilən məlumata görə, onlarda heyvanlar bütün şərtlərə uyğun saxlanılır: "Restoranımızda əsasən qəfəs quşları saxlanılır. Heyvan çox yoxdur. Baytarlıq tərəfindən gəlib yoxlanılır. Üç ayda bir dezinfeksiya olunur. Özəl peyvəndlər vurulur. Sənədlərimiz də mövcuddur".



Fərid Mansurov

### LİSENZİYA VAR, ŞƏRAİT YOX

GWARP Beynəlxalq Təşkilatının Prezidenti və direktorlar şurasının üzvü Fərid Mansurovun sözlərinə görə, bu kimi restoranların icazəsi olsa da, heyvanların saxlanması ilə bağlı qaydalara əməl olunmur: "Heyvanların bu şəkildə saxlanıldığı obyektlər çoxdur. Bəzi obyektlərdə saysız-hesabsız vəhşi heyvanlar saxlanılır. Həmin obyektlərin zooloji kolleksiya yaratması üçün lisenziyaları olur. Bu lisenziyalar uzun müddət öncə verilib. İndi yoxlamalar zamanı aşkar olunur ki, hər birinin lisenziyası var, amma heç birinin heyvanlar üçün yaratdığı şərait uyğun deyil. Heyvanlar sanki həbs düşərgəsindədirlər və illərdir əziyyət çəkirlər". F.Mansurovun fikrincə, restoranlarda heyvanların saxlanması və onların əyləncə obyekti kimi istifadəsi qərb dünyasında heyvan hüquqlarının kobud şəkildə pozulması kimi qiymətləndirilir və bununla son dərəcə ciddi mübarizə aparılır: "Azərbaycanda isə bu barədə müvafiq qanunvericilik olmadığı üçün heyvanlar hüquq subyekti hesab edilmirlər. Bu sahədə qanunlara ehtiyac var".

### "Vəhşi heyvanları görmək istəyənlər milli parklara üz tutmalıdır"

Müsahibimiz düşünür ki, heyvanlar milli parklar və qoruqlarda daha güvəndədir: "Hazırda bəzi Avropa ölkələrində zooparklardan tamamilə imtina ediblər. Bir sıra ölkələr də zooparklardan imtina etməyi düşünürlər. Biz də buna doğru getməliyik. Ölkəmizdə milli parklar və qoruqlar var. Onları inkişaf etdirməliyik. Vəhşi heyvanları görmək istəyənlər milli parklara üz tutmalıdırlar. Elə şərait yaradılmalıdır ki, xaricdə olduğu kimi heyvanlar öz ərazilərində rahatlıqla gəzib dolansınlar və insanlardan qorxmasınlar". Heyvan haqları aktivisti İlkin Məmmədkərimov isə hesab edir ki, bu kimi halların çıxış yolu cəzaların sərtləşdirilməsidir: "Restoranlarda vəhşi heyvan və quşların saxlanılması birmənalı şəkildə heyvan haqları pozuntusudur. Dövlət orqanlarının bu sahədəki monitorinqləri yetərli deyil. Monitorinqlər davamlı olaraq həyata keçirilməlidir. Qanunla yolverilməzdir. Lakin qanunvericiliyimizdə sərt cəza mexanizmləri olmadığından bu kimi hallar adiləşib. O səbəbdən ilk növbədə qanunvericiliyə dəyişiklik edilməli, cəzalar sərtləşdirilməlidir".

### CƏRİMƏLƏRİN MİQDARI

Vəkil Turan Abdullazadə bildirdi ki, Azərbaycanda bu məsələ "Heyvanlar aləmi haqqında" qanunla tənzimlənir. Qanun heyvanlar aləminin qorunması, nəsli kəsilən vəhşi növlərin mühafizəsi və onların təbii mühitdən götürülməsi, istifadə qaydalarını müəyyən edir: "Qanunun pozulmasına görə inzibati məsuliyyət tətbiq olunur. İnzibati Xətalar Məcəlləsinə əsasən heyvanlar aləmi obyektlərindən özbaşına istifadə edilməsinə görə fiziki şəxslər iki yüz manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min beş yüz manatadək məbləğdə cərimə edilir. Heyvanlar aləmi obyektlərindən istifadə qaydalarının pozulmasına görə - fiziki şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə, vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər beş min beş yüz manatdan yeddi min manatadək məbləğdə cərimə edilir".



Turan Abdullazadə

EKSPERTLƏR İSTİFADƏ QAYDALARI İLƏ BAĞLI HƏYƏCAN TƏBİLİ ÇALIRLAR

# PALMA YAĞINA TƏLƏBAT NİYƏ YÜKSƏKDİR?

Hətta kərə yağı kimi alıb istifadə etdiyimiz məhsulların tərkibində də palma yağına rast gəlinir. Palma yağı marqarin və digər bitki yağları ilə birlikdə kərə yağına qarışdırıla bilər. Bu, məhsulun maya dəyərini azaltmaq və saxlama müddətini uzatmaq məqsədi ilə edilir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




Bu il Azərbaycana 22 min tona yaxın palma yağı idxal edilib. Dövlət Statistika Komitəsinin hesabatı əsasında aparılan hesablamalara görə, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici həcm ifadəsində 9% və ya 2.2 min ton azalıb, dəyər ifadəsində isə 10.1% və ya 2.9 milyon ABŞ dolları artıb. 2025-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycana 31 milyon 252.2 min ABŞ dolları dəyərində 21 min 814.6 ton "xam palma yağı və onun fraksiyaları" idxal edilib. Bir kiloqram palma yağının orta idxal qiyməti 22% artaraq 2.44 manata çatıb. Maraqlıdır, palma yağının zərərləri ilə bağlı cəmiyyətdə ciddi müzakirələr edilir, maarifləndirmə kampaniyaları aparılır. Bəs palma yağı Azərbaycana niyə böyük həcmdə idxal olunur? Bu yağdan hansı sahələrdə istifadə olunur?

### İLK YERDƏ QİDA SƏNAYESİDİR

Qida təhlükəsizliyi üzrə ekspert Seymur Qafarov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, ölkəmizdə palma yağı qida sənayesində geniş istifadə olunur. Onun sözlərinə görə, bu yağ marqarin, paketlənmiş çörək və bulkalar, peçenye, kremli şirniyyatlar, dondurma, şokolad məhsulları, eləcə də "fast-food" (hamburger, hot dog çörəkləri) və dondurulmuş hazır yeməklərin tərkibində yer alır: "Palma yağı həm də kosmetika və məişətdə geniş tətbiq olunur. Belə ki, şampun, sabun, dodaq boyası və müxtəlif təmizlik vasitələrinin tərkibində bu yağdan istifadə edilir".

Mütəxəssis vurğulayır ki, hətta kərə yağı kimi alıb istifadə etdiyimiz məhsulların tərkibində də palma yağına rast gəlinir: "Palma yağı marqarin və digər bitki yağları ilə birlikdə kərə yağına qarışdırıla bilər. Bu, məhsulun maya dəyərini azaltmaq və saxlama müddətini uzatmaq məqsədi ilə edilir".

### TƏBİİ KƏRƏ YAĞINI SAXTA YAĞDAN NECƏ FƏRQLƏNDİRƏ BİLƏRİK?

Qida təhlükəsizliyi üzrə ekspert bildirir ki, kərə yağının tərkibində palma yağının olub-olmamasını müəyyən etmək üçün bir neçə sadə test mövcuddur: "Birincisi, isti su testidir. Əsl kərə yağı suda tək parça kimi əriyir. Saxta yağ isə, hissələrə ayrılır. İkincisi, otaq temperaturu testidir. Əsl kərə yağı otaq temperaturunda yumşalır, amma su kimi ərimir. Üçüncü yoxlamaq üsulu qoxu və rəngdir. Təbii yağ iştaha açan qoxu verir və köpüklənir. Saxta yağ isə tündləşir və rəng dəyişir. Həmçinin sirkə və yod ilə də əsl kərə yağı ilə palma yağını ayırmaq mümkündür. Yağa bir neçə damcı sirkə və yod əlavə edirsiniz. Rəng mavi və ya qəhvəyi olarsa, deməli, kərə yağına qatqı əlavə olunub".







Seymur Qafarov

### SUAL YARADAN MƏQAMLAR

Həmsöhbətimizin sözlərinə görə, istehlakçılar məhsulun etiketini oxumaqla da bəzi məhsulların tərkibində palma yağının miqdarını müəyyən edə bilərlər: "İstehlakçılar etiketi oxuyaraq "Palm oil", "Palm fat", "Vegetable fat (palm)" kimi ifadələrə diqqət yetirməlidirlər. "Hydrogenated vegetable oil" ifadəsi də palma yağı ola bilər. Həmçinin, uzunmüddətli saxlama qabiliyyəti olan, kremli və bərk konsistensiyalı məhsullarda palma yağı olması ehtimalı yüksəkdir. Ümumiyyətlə, ucuz qiymətli marqarin və şokolad məhsullarında palma yağı daha çox istifadə olunur".

İqtisadçı ekspert Pərviz Heydərov deyir ki, kərə yağı bazarında ciddi nəzarətsizlik müşahidə olunur: "Hazırda 20 manatdan yuxarı qiymətə satılan kərə yağlarının tərkibi belə şübhə doğurur. Palma yağının idxalında müşahidə olunan rəqəmlər isə sahədəki nəzarətsizliyin bir göstəricisidir. Əgər palma yağı insan orqanizmi üçün zərərli sayılırsa və qida sənayesində istifadəsi məqbul hesab edilmirsə, tələbatın çox olması ciddi suallar yaradır. Ümumilikdə qida sənayesində istifadə olunan yağlarla bağlı istehlakçının sağlamlığını qorumaq üçün şəffaflıq və məsuliyyətli nəzarət mexanizmləri yaradılmalıdır".

### PALMA MEYVƏSİNDƏN HAZIRLANIR, YOXSA ÇƏYİRDƏYİNDƏN?

P.Heydərov deyir ki, palma bitkisindən alınan yağlar iki formada mövcuddur. Birinci forma meyvənin özündən, yəni lətli hissəsindən alınan palma yağıdır. İkincisi isə palmanın çəyirdəyindən alınan tum yağıdır: "Meyvədən əldə olunan palma yağı dünyada geniş şəkildə istifadə olunur və texniki baxımdan qida sənayesində istifadəyə yararlı hesab edilir. Lakin palma çəyirdəyindən (kernel) alınan yağ insan sağlamlığı üçün daha zərərli sayılır və qida məhsulu kimi istifadəsi ciddi suallar doğurur. Hazırda ölkəyə idxal olunan palma yağı ilə bağlı əsas suallardan biri də budur: gətirilən yağ palma meyvəsindən hazırlanır, yoxsa çəyirdəyindən?".

Mütəxəssis vurğulayır ki, hazırda ölkəyə idxal olunan palma yağı məhsullarının növü, keyfiyyəti və hansı məqsədlə istifadə edildiyi barədə daha şəffaf və konkret məlumatlara ciddi ehtiyac var: "Digər tərəfdən, ölkədə satışda olan bəzi kərə yağlarının harada istehsal edildiyi, harada qablaşdırıldığı və ölkəyə hansı kanallar vasitəsilə daxil olduğu barədə alıcılarda əsaslı məlumatlar yoxdur. Təəssüf ki, bu sualların cavabı əksər hallarda açıq şəkildə təqdim edilmir. Bəzi istehlakçılar düşünür ki, ucuz qiymətə satılan bəzi "kərə yağları" əslində yerli istehsal ola bilər və onların tərkibinə palma yağı kimi ucuz xammalların əlavə olunması mümkündür".



Pərviz Heydərov

# BAKIYA GƏTİRİLƏN ƏTLƏR TƏHLÜKƏLİDİR?

Ölkənin bir sıra bölgələrində iribuynuzlu heyvanlar arasında dabaq xəstəliyinin yayılması barədə xəbərlər dolaşır. Ən çox müzakirə olunan məqam xəstə heyvanların kəsilərək Bakıya göndərilməsi barədə səslənən iddialardır. Rəsmi qurumlar vəziyyətin nəzarətdə olduğunu bildirir.



**SEVİNC ABBASOVA**

Ölkənin bir sıra bölgələrində iribuynuzlu heyvanlar arasında dabaq xəstəliyinin yayılması barədə xəbərlər dolaşır. Bu səbəbdən insanların ət məhsullarına ehtiyatla yanaşdığı, ət almaqdan çəkindikləri bildirilir. Ən çox müzakirə olunan məqam isə xəstə heyvanların kəsilərək Bakıya göndərilməsi barədə səslənən iddialardır. Bu iddialar təkcə bölgələrdə deyil, paytaxtda da istehlakçıların narahatlığına səbəb olub. Məlumatların nə dərəcədə həqiqətə uyğun olub-olmaması hələlik təsdiqlənməsə də, əhali mövcud vəziyyətdən narahatdır. İnsanları düşündürən əsas sual budur: Bakıya gətirilən ətlər təhlükəsizdirmi və dövlət qurumları vəziyyəti necə nəzarətdə saxlayır? Ümumiyyətlə, narahatçılığa əsas varmı?

"Kaspi" qəzeti mövcud vəziyyətə aydınlıq gətirmək məqsədilə dövlət qurumlarına müvafiq sorğu ünvanlayıb.

### OPERATİV QRUP YARADILIB

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyindən sorğumuza cavab olaraq bildirilib ki, hazırda Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri idarələrinin əməkdaşları tərəfindən bölgələrdə iribuynuzlu və xırdabuynuzlu heyvanların peyvəndlənməsi həyata keçirilir: "Heyvan xəstəlikləri ilə bağlı daxil olan müraciətlərə operativ reaksiya verilir, baytarlar tərəfindən təsərrüfatlara gedilərək lazımi dəstək göstərilir. Əməkdaşlarımız peyvəndləmə işləri ilə paralel olaraq, dezinfeksiya işləri də həyata keçirirlər. Heyvan xəstəliklərinin vaxtında aşkarlanması və preventiv tədbirlərin görülməsi məqsədilə təsərrüfatlarda müntəzəm monitorinqlər keçirilir, yerlərdən məlumatlar toplanır və operativ reaksiya göstərilir. Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzində operativ məlumat toplayan və analiz edən qrup yaradılıb. Qrupa daxil olan məlumatlar əsasında əməkdaşlar rayonlara ezam edilir və yerində vəziyyətlə tanış olurlar".

### BAYTARLIQ NƏZARƏTİ MƏCBURİDİR

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) "Kaspi"nin sorğusuna cavab olaraq bildirilib ki, "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, heyvan mənşəli məhsulların - insan istehlakı üçün yararlı olan ət və emal yolu ilə onlardan alınan məhsulların istehsalı, tədarükü, saxlanması, emalı və satışı obyektlərində baytarlıq nəzarəti məcburidir: "Heyvan mənşəli məhsulların tədarükü, saxlanması və satışı ilə məşğul olan təşkilatlara yalnız baytarlıq-sanitariya ekspertizasından keçmiş, əhalinin sağlamlığı üçün təhlükəsizlik tələblərinə cavab verən məhsulların qəbuluna və satışına icazə verilir. Bu məhsulların qəbuluna və satışına yalnız yoluxucu xəstəliklərə görə sağlam olan təsərrüfatlardan çıxan heyvan mənşəli məhsullar buraxılır və həmin proses səlahiyyətli dövlət baytarlıq orqanı tərəfindən verilən sənəd əsasında həyata keçirilir".

Qurumun açıqlamasında o da vurğulanıb ki, Azərbaycan qanunvericiliyinə görə, heyvan kəsimi yalnız Qida Təhlükəsizliyi Agentliyində qeydiyyatdan keçmiş və müvafiq tələblərə cavab verən kəsim məntəqələrində aparılmalıdır: "Qeydiyyatsız, sanitar-baytarlıq nəzarətindən kənarda həyata keçirilən heyvan kəsimi isə həm qida təhlükəsizliyi, həm də ictimai sağlamlıq üçün ciddi risklər yaradır. AQTA istehlakçılara tövsiyə edir ki, yalnız baytarlıq müşayiətedici sənədləri olan heyvan mənşəli məhsullar alsınlar. Bu sənədlər məhsulun sağlam heyvandan əldə olunduğunu, baytarlıq nəzarətindən keçdiyini və qida təhlükəsizliyi baxımından tələblərə uyğun olduğunu təsdiq edir".

## Təsadüfi kəsim məntəqələrində təhlükə

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov isə bu məsələdə istehlakçıların narahatçılığını başadüşülən hesab edir. Onun sözlərinə görə, əvvəlki illərin praktikasında xəstə heyvanların kəsilərək müxtəlif yollarla paytaxta daşınması halları qeydə alındığından, bu halın təkrarlanması istisna olunmur: "Mənşəyi bilinməyən, xəstə heyvan ətləri ictimai sağlamlığa ciddi təhdid yaradır. Bu ətlərin mənbəyini müəyyən etmək, hətta elmi araşdırmalarla belə mümkün deyil. Azad İstehlakçılar Birliyi olaraq biz bu sahədə hökumətə və Qida Təhlükəsizliyi Agentliyinə dəstək göstərməyə çalışırıq".

AİB sədri onu da qeyd edib ki, qanunsuz heyvan kəsimi ilə mübarizənin effektivliyini artırmaq üçün yalnız inzibati yollarla mübarizə aparmaq mümkün deyil: "Bu məsələyə yerli polis orqanları, icra hakimiyyətləri və Qida Təhlükəsizliyi Agentliyi nəzarət edir. Amma bununla bağlı maarifləndirmə işləri də vacibdir. Kəsim yerlərini, necə deyərlər, ifşa etməklə iş bitmir. Əsas məsələ istehlakçıları maarifləndirmək və elə bir ictimai mühit yaratmaqdır ki, insanlar bu cür hallardan çəkinsinlər. İstehlakçılar küçə kəsimindən imtina etməlidirlər. Bu istiqamətdə maarifləndirmə işi geniş şəkildə aparılmalıdır. Təəssüf ki, ictimaiyyətin bu sahədə dövlət orqanlarına dəstəyi azdır. İstehlakçı ət və ət məhsullarını təsadüfi kəsim yerlərindən deyil, iri marketlərdən almalıdır. Biz buna öyrəşməliyik. Çünki iri ticarət mərkəzlərinə daxil olan məhsullara AQTA tərəfindən ciddi nəzarət edilir. Həmin məhsullar rəsmi satış icazəsi olmadan marketlərə daxil ola bilməz. Təsadüfi kəsim yerlərində isə nəzarət yoxdur. İstehlakçı bu cür kəsim məntəqələrindən ət almaqla sağlamlığını təhlükəyə atır".



Eyyub Hüseynov

# ROMANIN ƏN GİZLİ VƏ UNİKAL GUŞƏSİ



Qarbatellada yerli romalılar yaşayırlar. Onun adı, tarixi, memarlığı və sakinləri 20-ci əsrin əvvəllərindəki Roma həyatının canlı ensiklopediyası hesab edilir. Burada gözəl italyan xiyabanlarını, orijinal qraffitiləri və gündəlik şəhər həyatından səhnələri müşahidə etmək olur.











TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Romada Qarbatella adlı kiçik bir məhəllə var. Paytaxtın cənub-şərq hissəsində yerləşən məhəlləni rahat, qəribə evləri, yaşıl bağları, kilsəsi, məktəbi, simvolları və füsunkar tarixi ilə "Əbədi şəhər" daxilində ayrı bir dünya adlandırırlar.

Qarbatella Romanın ən gizli və unikal guşəsidir. Burada yerli romalılar yaşayırlar. Kommunistlər, partizanlar, qanqsterlər və Papanın özü burada izlərini qoyub.

Turistlər bu ərazini o qədər tanımırlar. Ona görə dar küçələrində az sayda turist qruplarına rast gəlmək olur. "Əgər siz məhəllənin sakinləri ilə söhbətləşsəniz, onları müşahidə etsəniz və küçələrində gəzsəniz, Qarbatellanı hiss edəcəksiniz. Gəzinti sizə qeyri-adi fotoşəkillər və zamanla səyahət hissi bəxş edəcək", - deyə məhəlləni gəzən turistlər öz rəylərində yazırlar.

### BİNALAR ARASINDA GİZLƏNƏN MƏHƏLLƏ

"Qarbatella" metrostansiyasından bu əraziyə daxil olan kimi ziyarətçini "Ponte Ostiense" körpüsü qarşılayır. Körpünün qeyri-adi memarlığına laqeyd qalmaq olmur. Üstünə çıxıb ətrafı seyr edir, fotolar çəkirsən.

Hazırda məhəllənin kənarları çoxmərtəbəli binalarla örtülüb. Əvvəlcə yalnız çoxsaylı tikililərlə qarşılaşırsan. Bir az da irəli gedib binalar arasında gizlənən, bir əsrdən çox yaşı olan məhəllənin dar küçələri, köhnə evləri, xudmani həyətlərini görür, gözəllikdən zövq alırsan. Məhəllənin fərqli xüsusiyyəti açıq həyətlər və bağlar, İtaliya paytaxtının digər yerlərində eşidilməyən səssizlik və romantik atmosferdir. Qarbatellanın adı, tarixi, memarlığı və sakinləri 20-ci əsrin əvvəllərindəki Roma həyatının canlı ensiklopediyası hesab edilir. Burada gözəl italyan xiyabanlarını, orijinal qraffitiləri və gündəlik şəhər həyatından səhnələri müşahidə etmək olur. Qarbatelladakı atmosfer son yüz ildə dəyişməyib. Məhəllə öz köhnə binaları ilə "böyük" Romadan fərqlənir.

### "ANA ROMA" FİLMİNİN ÇƏKİLDİYİ YER

Qarbatellanın maraqlı tarixi var. Ərazinin tikintisinə 1920-ci ildə İtaliya kralı III Viktor Emmanuelin fərmanı ilə başlanılıb. Layihə dənizçilərin və limana xidmət edən işçilərin yaşayış məntəqələri ilə yanaşı, yeni çay limanının tikintisini nəzərdə tuturdu. Qarbatella dövrün dəb trendinə - ingilis bağ şəhərinə uyğun olaraq hazırlanır. Ərazidə ingilis bağ şəhəri konsepsiyası əsasında 40 villa tikmək qərara alınır. Hər bir evdə sakinlərin tərəvəz və meyvə yetişdirə biləcəyi torpaq sahəsi olmalı idi. Bu gün də həyətlər və bağlar kənarda yerləşir. Bu, Qarbatella bölgəsini Romanın digər ərazilərindən fərqləndirən xüsusiyyətdir. Məşhur diktator Benito Mussolininin hakimiyyətə gəlməsi ilə rayonun inkişaf planı əhəmiyyətli dəyişikliklərə məruz qalır. Mövcud villalar sökülmür, lakin diqqət cəlbedici olmayan binaların tikintisinə yönəlir. Yaşıl sahələr qismən kəsilir, çay limanı isə heç vaxt tikilmir. Dənizçilərin və liman işçilərinin əvəzinə, əraziyə Mussolininin şəhərin yenidən qurulması layihəsinə uyğun olaraq evləri sökülən mərkəzi Roma sakinləri köçürülməyə başlanır. Beləcə sakinlər paytaxtın fəhlə sinfinə qarışır.

Qarbatella qurulandan dərhal sonra Roma sakinləri üçün xüsusi bir yerə çevrilir. Məşhur italyan rejissorları çəkiliş üçün məkan kimi Qarbatellanı seçirlər. Pasolini dramatik "Ana Roma" filmini burada çəkib. Ərazini gəzdikcə sanki zaman maşınına qədəm qoyub evdar qadınların camaşırlarını asdığı, pəncərələrdən qəhvə qoxusunun sızdığı, ağ-qara italyan kinosunun ruhunun havada uçuşduğu bir əsr əvvəlki sakit həyata daşınırsan.

Binalardan birində paytaxtın və ümumilikdə İtaliya futbolunun simvolu olan Françesko Tottinin portreti demək olar ki, iki mərtəbəni əhatə edir. Əfsanəvi kapitan küncdən kənara baxır. Bu, Tottinin "Əbədi şəhər"dəki yeganə obrazı deyil.

### ROMA PAPASININ ZİYARƏT ETDİYİ KİLSƏ

Dar küçələr ziyarətçini "Piazza Damiano Sauli" meydanına aparır. Burada son xəbərləri müzakirə etmək üçün kiçik qruplar şəklində toplaşmağı sevən yerli sakinlərin dedi-qodularını dinləmək maraqlıdır.

"San Francesco Saverio" kilsəsi də bu ərazidə yerləşir. Məhəllə sakinləri II İohann Pavelin Papa seçildikdən sonra ziyarət etdiyi ilk kilsənin "San Françesko Saverio" olmasından böyük qürur hissi keçirirlər. Bu seçimi izah etmək asandır - Papanın bu kilsə haqqında xüsusi xatirələri var idi. O, tələbə kimi bazar günləri bura gəlir və kilsə ibadətlərinin aparılmasına kömək edirdi. Xüsusən həftə sonlarında yerli uşaqlara və kasıb sakinlərə dəstək məqsədi ilə bu kilsədə çox vaxt keçirirdi.

Meydanda Cesare Battisti İctimai İbtidai Məktəbi də yerləşir. Məktəb məşhur italyan serialı "Cesaroni" (I Cesaroni) rejissorlarının diqqətindən kənarda qalmayıb. Karlotta fəvvarəsi isə əfsanəyə görə, xoşbəxtlik üçün içməli bulaqdır. Sevgililər bulağın ətrafında oturmağı çox sevirlər. İtalyanların bu inancı məhəlləyə gələn qonaqlara da sirayət edir.

Qloballaşma və yeni şəhərsalma yerli əhalinin əsl italyan ruhunu kökündən ayıra bilməyib. Bir çox yerli romalı tələşdan qaçmaq, yerli gözəllikdən həzz almaq və həmişə olduğu kimi, qonşuları haqqında hər şeyi bilən və yoldan keçənlər haqqında sonsuz qeybət edən yerlilərlə ünsiyyət qurmaq üçün buraya gəlməyi sevir. Yerli sakinlər kənar adamlarla da mehribandırlar.






ÜÇ ƏSRİN QƏZETİ
Kaspi İDMAN
11 OKTYABR ŞƏNBƏ 2025
www.kaspi.az




# MÖHTƏŞƏM TƏŞKİLATÇILIQ, UĞURLU NƏTİCƏ




Fotolar: Global Photostock

MDB Oyunları bu mənada təkcə bir yarış yox, həm də Azərbaycan idmanının yeni nəslinin doğuluş mərhələsi kimi tarixə düşdü.

Azərbaycan daha bir multiidman yarışına uğurla ev sahibliyi etdi. Odlar Yurdu bu dəfə III MDB oyunlarının təşkilatçılığını ən yüksək səviyyədə həyata keçirdi. Əvvəllər Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları paytaxt Bakıda təşkil olunmuşdusa, indi də başda Gəncə olmaqla daha altı şəhərimiz idman mərkəzinə çevrildi.

**13 ÖLKƏ ARASINDA 2-Cİ YER**

Sentyabrın 28-dən oktyabrın 8-dək keçirilən III MDB Oyunları bir çox göstəriciləri ilə əvvəlkilərdən fərqləndi. Yarışlarda 13 ölkədən 1 624 idmançı və 2 337 nümayəndə iştirak etdi. Azərbaycan bu yarışda 340 idmançı ilə ən böyük heyətlə təmsil olundu və bu, həm ölkənin idmana verdiyi önəmi, həm də gənc nəslin artan fəallığını nümayiş etdirdi. Rusiya 262, Özbəkistan 254, Belarus 240, Qazaxıstan 147, Tacikistan 144, Qırğızıstan 126, Türkmənistan 48, Türkiyə 38, Kuba 11, Küveyt 6, Pakistan və Oman isə hərəyə 4 idmançı ilə iştirak etdi.

Yarışlar Azərbaycan üçün olduqca uğurlu keçdi. Ümumi medal sıralamasında Rusiya 231 medalla birinci yeri tutdu. Azərbaycan isə 33 qızıl, 56 gümüş və 95 bürünc olmaqla, ümumilikdə 184 medalla ikinci pillədə qərarlaşdı. Bu nəticə ölkəmiz üçün mühüm nailiyyət sayılır. Çünki Rusiya hər zaman bu cür çoxnövlü idman yarışlarının təcrübəli favoriti kimi çıxış edir. Buna baxmayaraq, Azərbaycan gənc və potensiallı heyətlə bu güclü rəqiblə demək olar ki, bərabər səviyyədə mübarizə apardı.

Əldə olunan ikinci yer yalnız statistik göstərici deyil, həm də Azərbaycan idmanının yeni nəsil uğur fəlsəfəsinin göstəricisidir. Gənclərin beynəlxalq arenada göstərdiyi inamlı çıxış ölkənin idman siyasətinin səmərəliliyini, regionlarda yaradılmış infrastrukturun real nəticə verdiyini təsdiqlədi.

## Üzgüçülükdən güləşə qədər

Azərbaycanın III MDB Oyunlarındakı çıxışı yalnız medal sayına görə deyil, həm də idman növlərinin rəngarəngliyinə görə xüsusi önəm daşıyır. Ölkəmizin medal mənzərəsi bu dəfə olduqca geniş idi - ənənəvi güclü növlərlə yanaşı, əvvəl az diqqət çəkən sahələrdə də ciddi uğurlar əldə edildi.

Əgər güləş, boks və taekvondo kimi növlər artıq Azərbaycan idmanının imza sahələri hesab olunursa, bu dəfə stolüstü tennis və üzgüçülük kimi nisbətən yeni istiqamətlərdə də diqqətçəkən nəticələr qeydə alındı. Stolüstü tennisçilərimiz fərdi və cütlük yarışlarında uğurlu çıxış edərək, həm kişi, həm də qadın komandaları ilə finala yüksəlib gümüş medallar qazandılar. Bu nəticə Azərbaycan stolüstü tennisinin inkişafda olduğunu göstərdi. Üzgüçülərimiz isə ümumilikdə 13 medal əldə edərək idman ictimaiyyətinə xoş sürpriz etdilər. Bu, Azərbaycanın su idman növlərində irəliləyişinin bariz sübutudur.

Ənənəvi olaraq güclü olduğumuz taekvondo üzrə idmançılarımız turnir boyu 22 medal qazanaraq yüksək səviyyədə çıxış etdilər. Güləşdə isə həm sərbəst, həm yunan-Roma, həm də qadın güləşi üzrə təmsilçilərimiz çoxsaylı qızıl, gümüş və bürünc medallar əldə etdilər.

Boksçularımızın çıxışı da xüsusilə vurğulanmalıdır. Azərbaycan təmsilçiləri yarışları 24 medalla tamamladılar ki, bu da ümumi komanda nəticəsində ciddi paya malik oldu. Atıcılıq, qılıncoynatma, sambo, karate, badminton, avarçəkmə, batut və bədii gimnastika kimi fərqli sahələrdə də komandalarımızın qazandığı medallar ölkə idmanının çoxşaxəli inkişafından xəbər verir. Komanda yarışlarında da Azərbaycan idmançıları yüksək səviyyədə çıxış etdilər. U-16 futbol yığmamız finalda Rusiyaya bəxtsizlik nəticəsində məğlub olaraq, gümüş medalla kifayətləndi. Qadın basketbolçularımız (3x3) isə turniri ikinci pillədə başa vuraraq MDB məkanında ən güclülər sırasında yer aldılar.

## Hər şey ideal idi...



Azərbaycanın qədim milli oyunu olan çövkən isə Oyunların ən parlaq səhifələrindən birinə çevrildi. Komandamız bütün görüşlərdə üstün olaraq finalda Özbəkistanı məğlub etdi və MDB Oyunlarının qızıl medalını qazandı.

Bu yarışların ən dəyərli tərəfi isə odur ki, bütün bu nəticələri qazanan idmançıların əksəriyyəti gənclərdir. Onlar gələcək illərdə Avropa, dünya və Olimpiya yarışlarında Azərbaycan adını daha yüksək zirvələrdə təmsil etməyə hazır olduqlarını göstərdilər. MDB Oyunları bu mənada təkcə bir yarış yox, həm də Azərbaycan idmanının yeni nəslinin doğuluş mərhələsi kimi tarixə düşdü.

Azərbaycanın III MDB Oyunlarını keçirməsi ölkəmizin təşkilatçılıq gücünü bir daha sübut etdi. Yarışlar mükəmməl səviyyədə təşkil olundu – idman obyektləri, təhlükəsizlik tədbirləri, qonaq qəbulu və logistika baxımından hər şey nümunəvi idi.

Açılış mərasimi milli musiqi və rəqslərin, işıq şoularının harmoniyası ilə əsl bayram ab-havası yaratdı. Bağlanış mərasimi isə həm emosionallığı, həm də vizual gözəlliyi ilə MDB Oyunlarının zirvəsinə çevrildi.

Təhlükəsizlik yüksək səviyyədə təmin olundu, iştirakçılar və qonaqlar rahat, qayğı ilə əhatə olunmuş mühitdə oldular. Könüllülərimizin fədakar fəaliyyəti isə yarışların ruhunu tamamladı – onların səmimiyyəti və dəqiqliyi hər kəsin rəğbətini qazandı.

Bu oyunlar yalnız paytaxt üçün deyil, həm də regionlar üçün böyük əhəmiyyət daşıdı. Regionlarda yaradılan infrastruktur həmin şəhərlərin gələcək idman və turizm inkişafına ciddi töhfə verəcək.

Nəticə etibarilə, III MDB Oyunları Azərbaycanın beynəlxalq səviyyədə etibarlı, güclü və qonaqpərvər ev sahibi olduğunu bir daha göstərdi. Yarışlar həm ölkəmiz üçün qürur mənbəyinə, həm də region idmanının inkişafı üçün mühüm mərhələyə çevrildi.